www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 fevral 2019-cu il Bazar ertəsi № 26 (7196) Qiymәti 60 qəpik

**Xəbər**

**Rusiyada azərbaycanlı sahibkar dəm qazından öldü**

yazısı səh.14-də

**Gündəm**

**Televiziyalara donuz qripi çağırışı edildi: "Virus haqda sosial çarxlar hazırlayın!.."**




Deputat və tanınmış pediatr əhalini panikaya düşməməyə səslədi

yazısı səh.5-də

**Anası prezidentə müraciət edən Hüseyn Abdullayev bağışlana bilərmi? - İki rəy**

yazısı səh.5-də

**YAP "ortada yeyib qıraqda gəzən" deputatlarını fəallaşdırmaq istəyir**

yazısı səh.9-da

**Ermənistan Rusiyadan qırıcılar alacaq - Azərbaycanın qərarı nə olacaq?**

yazısı səh.6-da

**"Lady Sharm"ın sahibləri xaricdən qayıtmaq istəmirlər - saxta mallar satılması məsələsi böyüyür**

yazısı səh.10-da

**Daşınmaz əmlak bazarında ucuzlaşma gözlənilir - səbəb**

yazısı səh.2-də

**"Qarabağ məsələsi İsrail-Fələstin münaqişəsi kimi uzana bilməz" - tanınmış politoloq**

yazısı səh.4-də

**ABŞ cəmiyyəti Trampdan bezib, ona əvəz axtarır**

yazısı səh.12-də

**Qüdrət Həsənquliyevin nazirə qarşı ittihamlarına reaksiyalar**

yazısı səh.4-də

**Taksi xidməti barədə bilmədiklərimiz - ən təhlükəli peşənin özəllikləri, tariflər, hiylələr və daha nələr..**

yazısı səh.15-də

# FİASKO OLAN XARİCİ SƏFƏRLƏR, PAŞİNYANA QARABAĞ "DƏRSİ"

Erməni baş nazirin "iki stul" siyasəti, sülhlə bağlı ziddiyyətli mövqeyi və söz oyunu işğalçı ölkəyə Qərbin sərmayələrini yox, yeni təlatümlər vəd edir; **politoloq:** "O, öz inqilabının qurbanına çevrilə bilər..."




yazısı səh.8-də

## Tiflisdə etirazlar başlayır: Xocalı canisinə abidə olayı böyüyür

Soydaşlarımız aksiyaya sərt şüar-tələblərlə çıxacaqlar; Zəlimxan Məmmədli: "Azərbaycanda da aksiyalar edə bilərik, ancaq..."

yazısı səh.3-də



**Ziya Məmmədovun 100 milyonluq "intellektual korrupsiyası"**

yazısı səh.14-də



*Fazil Mustafa:*

**"Azərbaycanda baş verənlər hakimiyyət davası deyil, Azərbaycan davasıdır"**

yazısı səh.7-də



*Rauf Arifoğlu:*

**"Qəzetlərə "olma" deyən Odur! Bəs biz nə edək..."**

yazısı səh.9-da

**4 fevral 2019**



## Daşınmaz əmlak bazarında ucuzlaşma gözlənilir

**Bu ilin birinci yarısında Azərbaycanda mənzil qiymətlərinin 5-10 faiz ucuzlaşması gözlənilir. Bunu Trend-ə "Koneko Group" qiymətləndirmə şirkətinin direktoru Vüqar Oruc deyib.**

O bildirib ki, dövlət tərəfindən sosial mənzillərin tikintisi layihəsinin reallaşdırılması nəticəsində bazarda təklifin artımı müşahidə olunur: "Buna əsaslanaraq, bu il təklifin artması və daşınmaz əmlak bazarında qiymətin azalması gözlənilir".

V.Orucun sözlərinə görə, hazırda ölkənin daşınmaz əmlak bazarında alqı-satqı əməliyyatlarının sayı azdır, amma bununla belə, canlanma da müşahidə olunur: "Satıcılar daşınmaz əmlakı qısa müddət ərzində sata bilmir. Müəyyən müddətdən sonra daşınmaz əmlakın qiymətinin düşdüyünü müşahidə edirik. Bu, onunla bağlıdır ki, satıcılar qısa müddət ərzində daşınmaz əmlakı sata bilmir və ilkin qiyməti azaltmağa məcbur olur".

O həmçinin əlavə edib ki, daşınmaz əmlak bazarında qiymətlərin kəskin artımı gözlənilmir.

## Almaniyada Paşinyana erməni mafiyasını xatırlatdılar



**"Federal hökumət təsdiq edir ki, Almaniyada erməni cinayətkarlar fəaliyyət göstərir". Bu barədə Bundestaqdakı solçuların sorğusuna federal hökumətin cavabında bildirilir.**

Virtualaz.org "Der Tagesspiegel" nəşrinə istinadən xəbər verir ki, bununla da, hökumət alman mətbuatının erməni "qanuni oğrular"ın, çox güman ki, bütün ölkə ərazisində fəaliyyət göstərməsi barədə təhqiqatının nəticələrini təsdiqləyir. Polisin məlumatlarına görə, 42 nəfər barəsində 14 cinayət işi açılıb.

Nəşr qeyd edir ki, sənəd üçün vaxt o qədər də uğurlu deyildi, çünki Ermənistanın baş naziri Nikol Paşinyan Almaniyada səfərdə idi və ölkə rəhbərliyi ilə görüşlər keçirirdi.Polis ermənilər pulların yuyulmasında, zorakılıq hərəkətlərində, dələduzluqda və mülkiyyət cinayətlərində şübhəli bilir. İndiyə qədər onlardan yalnız birinə qarşı ittiham irəli sürülüb. Məqalədə o da qeyd olunur ki, hüquq-mühafizə orqanları italyan və erməni mafiyaları arasında əlaqə aşkar ediblər.

Xatırladaq ki, ötən ilin noyabr ayında Almaniyanın "Der Spiegel" nəşri erməni mafiyasının fəaliyyəti barədə yazıb. Daha sonra alman KİV-ləri məlumat yayıblar ki, Türingiya federal torpağının cinayət polisi idarəsi erməni mafiyasının izinə düşüb və klanın iki şübhəli üzvünü tutub.

## Rasim Balayev: "Yenidən Nəsimi obrazını canlandırmaram"



**"Nəsimi" filmi çəkilsə, dəvət alsam, yenidən o obrazı canlandırmaram". Bu sözləri musavat.com-a açıqlamasında xalq artisti Rasim Balayev deyib.**

O bildirib ki, prezident İlham Əliyevin 2019-cu ili Azərbaycanda "Nəsimi ili" elan etməsindən məmnun olub: "Prezidentin bu addımını alqışlayıram. "Nəsimi ili" ilə bağlı böyük seminarlar, tədbirlər olacaq. Məktəblərdən təkliflər gəlir ki, onların tədbirlərinə qatılıb, uşaqlara bildiklərimdən danışım. Hələlik hazırlıq gedir. Məni də dəvət edirlər. Alınsa, iştirak edəcəyəm. "Nəsimi" filminə gəldikdə isə, filmə dəvət alsam, çəkilmərəm. Mən oynadığımı oynamışam. Yəqin ki, təzə ssenari yazılar, ona uyğun aktyorlar seçilər. Mən gedib, nə məsləhət verə bilərəm ki?"

❑ Könül İBRAHİM

# Cümhuriyyətin elan edildiyi bina təmir olunur

**Gürcüstanın paytaxtı Tiflis şəhərində yerləşən Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) elan olunduğu bina bərpa olunacaq. Report xəbər verir ki, Tiflis İnkişaf Fondu indiki "Gənclər sarayı" kimi fəaliyyət göstərən binanın yenidən qurulması ilə bağlı tender elan edib.**



Tenderdə iştirak etmək istəyən şirkət mədəni irs abidələrinin bərpa olunmasında təcrübəyə malik olmalıdır. Təkliflərin qəbulu fevral ayının 11-də başa çatacaq. Tenderdə qalib gələcək şirkət Tiflis İnkişaf Fonduna 10 dekabr 2019-cu il tarixinə qədər hazır layihə təqdim etməlidir.

"Gənclər sarayı"nın bərpa olunması işlərinə, ümumilikdə, 600 min lari (227 min dollar) məbləğində vəsaitin ayrılması nəzərdə tutulub. Saray Tiflisin mərkəzi Rustaveli prospekti 6 ünvanında yerləşir. 1918-ci il mayın 28-də məhz bu binada AXC-nin müstəqillik bəyannaməsi oxunaraq, Şərqdə ilk demokratik respublikanın yaradıldığı rəsmən elan olunub. Binada AXC-nin elan edildiyi zalın girişində bu barədə Azərbaycan, gürcü və ingilis dillərində məlumatın əks olunduğu lövhə yerləşdirilib.

## Azərbaycanda 34 məhkum cərrahi əməliyyat olunub

**"Ötən illərlə müqayisədə mülki tibb müəssisələrində müayinələrə, konsultasiyalara, cərrahiyyə əməliyyatlarına və digər tibbi tədbirlərə çıxarılma halı 13% artıb (2018-ci ildə 237, 2017-ci ildə 210 olub). Bu da məhkumlara göstərilən tibbi xidmətin sivil sektorla ekvivalentliyinin təmin edilməsi məqsədini daşıyır".**

Musavat.com xəbər verir ki, bu barədə Azvision.az -ın sorğusuna cavab olaraq Ədliyyə Nazirliyindən məlumat verilib. Bildirilib ki, Respublikanın aparıcı mütəxəssisləri tərəfindən müalicə müəssisəsində keçirilən konsultasiyaların və cərrahiyyə əməliyyatlarının sayında artım müşahidə olunur. Belə ki, 2018-ci ildə 286 konsultasiya, 34 cərrahiyyə əməliyyatı olubsa, 2017-ci ildə 246 konsultasiya, 30 cərrahiyyə əməliyyatı edilib.

"Azadlıqdan məhrumetmə yerlərində saxlanılan insanlar cəmiyyətin bir hissəsidir. Cəmiyyətdə baş verən xəstəlik halları cəzaçəkmə müəssisələrində də qeydə alınır. Həbs edilmiş şəxs penitensiar müəssisəyə daxil olarkən o, ilkin tibbi müayinələrdən keçirilir və azadlıqdan düçar olduğu xəstəliklər barədə məlumatlar tibbi sənədlərdə qeydiyyata alınaraq həkim nəzarətinə götürülürlər. Penitensiar müəssisələrdə tibbi xidmət hər bir məhbusa əlçatandır və onlara xəstəliyinə uyğun olaraq tibbi yardımlar göstərilir. Bütün cəzaçəkmə müəssisələrində tibb-sanitar hissələri mövcuddur. Zərurət yarandıqda məhbusun müayinə və müalicələrinə Səhiyyə Nazirliyinin ali dərəcəli müxtəlif ixtisaslı aparıcı həkimləri də cəlb olunur. Mürəkkəb diaqnostik hallarda müayinələr zamanı Səhiyyə Nazirliyinin klinikalarının maddi-texniki imkanlarından da istifadə edilir", - deyə məlumatda qeyd edilib.

## Yorğunluğu azaldan 5 vərdiş

**Düzgün və sağlam bir şəkildə qidalanmaq bədəniniz üçün olduqca önəmlidir. Daha enerjili olmaq və günlük işlərinizi edə bilmək üçün təbii qida yeməyi unutmayın. Teleqraf.com-un məlumatına görə, bununla da maddələr mübadiləsi gündüz daha aktiv olar.**

### Yatağınıza iş götürməyin

Yatmazdan əvvəl yatağınıza iş aparmaqdan vaz keçin. Bu vəziyyət yemək və ya televiziya izləmək kimi maddələrdir. Yatağınızı yalnız yatmaq üçün istifadə edə bilərsiniz. Beyninizi buna alışdırsanız, bədəniniz yatağı dinlənmə və yatmaq yeri olaraq görməyəcək və burası rahat yuxu yeri olmaqdan çıxacaqdır.

### Su içməyi yaddan çıxarmayın

Su bədən üçün olduqca vacibdir. Hər gün yetərli su içdiyinizə əmin olmalısınız. Susuz qaldığınızda beyniniz rahat işləməz və bunun nəticəsində də rahat yata bilməzsiniz.

### Yatmadan əvvəl isti bir duş almağa çalışın

Yatmağı düşünürsəniz mütləq isti bir duş almalısınız. Bu rahatlamanıza kömək olar və sizi yuxuya hazırlayar.

### Təbii bitkilərdən istifadə etməyi unutmayın

Daha yaxşı dincəlməyiniz və yorğun hiss etməməyiniz üçün bir çox fərqli bitkilər var. Kahı yarpağı, solmaz çiçəyi və pişik otu kimi bitkilərin çaylarını içərək bədəninizi və beyninizi rahatlaya bilərsiniz.

## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**



## Bu gün Bakıda yağmursuz hava olacaq

**Bu gün ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata görə, fevralın 4-ü Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gecə və səhər bəzi yerlərdə duman, çiskin olacağı gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-5° isti, gündüz 6-8° isti, Bakıda gecə 3-5° isti, gündüz 6-8° isti təşkil edəcək. Atmosfer təzyiqi normadan yüksək 775 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 70-80 % olacaq.**

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şimal və şərq rayonlarında yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-5° isti, gündüz 7-10° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 3-6° isti təşkil edəcək.

## İsmayıllıda mikroavtobus iki qadını vurdu

**İsmayıllı rayonunda iki piyadanın vurulması ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. "Report"un məlumatına görə, hadisə Qaraməryam-İsmayıllı-Şəki yolunun rayon ərazisindən keçən hissəsində baş verib.**

Qəbələ sakini idarə etdiyi "Ford" markalı sərnişin mikroavtobusu ilə Bakı istiqamətində hərəkətdə olarkən yolu keçmək istəyən rayonun Mican kənd sakinləri - 1963-cü il təvəllüdlü Mahmudova Qənirə Afət qızı və 1962-ci il təvəllüdlü Paşayeva Ramilə Dursunəli qızını vurub. Yaralılar dərhal İsmayıllı Rayon Mərkəzi Xəstəxanasına aparılıb. Yaralılardan Q.Mahmudovanın vəziyyəti ağır olduğundan o, Bakıdakı xəstəxanaların birinə göndərilib. Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 26 (7196) 4 fevral 2019

# Sabah Tiflisdə etirazlar başlayır: Xocalı canisinə abidə olayı böyüyür

## Soydaşlarımız aksiyaya sərt şüar-tələblərlə çıxacaqlar; **Zəlimxan Məmmədli:** "Burada da aksiyalar edə bilərik, ancaq..."

**Gürcüstanın Axalkalaki şəhərində erməni terrorçu Mixail Avaqyana abidə ucaldılmasına qəzəblənən bu ölkədəki azərbaycanlılar kütləvi etiraz aksiyasına hazırlaşırlar. İlk etiraz aksiyası sabah - fevralın 5-i saat 12-də Gürcüstan parlamentinin qarşısında olacaq. Aksiyanın keçirilməsi artıq razılaşdırılıb.**




Aksiyaya azərbaycanlıların kütləvi şəkildə qoşulacağı bildirilir. O da bildirilir ki, erməni terrorçuya abidə ucaldılması azərbaycanlılara qarşı ciddi hörmətsizlikdir, mənəvi sarsıntıdır və Gürcüstandakı azərbaycanlılar abidənin oradan götürülməsini sərt şəkildə tələb edəcəklər. Aksiyada "Təxribatçılar, əlinizi Gürcüstan-Azərbaycan dostluğundan çəkin!", "Separatçı Mixail Avaqyanın büstü götürülsün!", "Gürcüstan və Azərbaycanın ərazi bütövlüyü müzakirə predmeti deyil!", "Separatçılığa və separatçılara YOX!", "Gürcüstan-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir!" şüarlarının səsləndirilməsi nəzərdə tutulub.



Məlumat üçün qeyd edək ki, Axalkalaki rayonunun Buqaşeni kəndində "Kobra" ləqəbli Mixail Avaqyana büstün qoyulması Tiflislə Bakı arasında diplomatik gərginliyə, habelə Azərbaycan ictimaiyyətinin və KİV-lərinin kəskin reaksiyasına səbəb olub. Mixail Avaqyan həmin kənddə anadan olub, Ermənistanda yaşayıb və Qarabağ müharibəsi zamanı Qubadlı, Cəbrayıl, Füzuli rayonunun işğalında, habelə Xocalı qətliamında iştirak edib. 1994-cü ildə Horadiz döyüşləri zamanı öldürülüb.

"Yeni Müsavat"a danışan Borçalı İctimai Cəmiyyətinin sədri Zəlimxan Məmmədli bildirdi ki, bu gün vətəndaş meydanda olmalı, icma sözünü deməlidir: "İcma onun milli heysiyatına toxunan məsələlərə biganə qalmalı deyil. Bu baxımdan Gürcüstanda olan proseslər önəmlidir. Orada bizim icma olaraq soydaşlarımızın davranışı, ortaya qoyduqları mövqe əhəmiyyət kəsb edir. Ən ciddi məsələlərdən biri budur ki, icmalaşmanı əngəlləyən mexanizm var. Bəzi halda müxtəlif fikirlərin, yanaşmaların olmasını normal qəbul edə bilərik. Ancaq bu məsələdə Azərbaycanın milli mənafeyinə, Gürcüstan-Azərbaycan münasibətlərinə toxunulub. Cənubi Qafqazın birliyini, vəhdətini pozacaq, sülhü sarsıdacaq proses baş verib. Belə olan halda məsələ Gürcüstanın daxili işi olmaqdan çıxır. Çünki burada Azərbaycanın milli maraqları təhdid olunub, dünyaya hayqırdığımız məsələ qonşumuzda ayaq altına alınıb. Bu baxımdan da orada soydaşlarımızın aktivliyini, vahid mövqeyə gəlmələri lazımlıdır. Gürcüstanın dövlətçiliyinin təhdid edilməsi prosesinin qarşısının alınması, abidənin götürülməsi, ona rəvac verənlərin məsuliyyətə cəlbi, Gürcüstan-Azərbaycan münasibətlərinin strateji tərəfdaşlığının yenidən bir masa ətrafında danışılması çox önəmlidir. Hər halda iki tərəf aydınlaşdırmalıdır ki, biz dostuqsa dostluğumuzu biləki, bir-birimizin milli hədəflərimizə toxunmayaq. Bu məsələlərin bəlkə də gələcəkdə rəsmiləşməsinə ehtiyac var. Soydaşlarımızın ayın 5-nə Parlament binasının qarşısında planlaşdırılan aksiyasından məlumatlıyam. Orada bir neçə qurumlar, təşkilatlar cəmlənib. Bunu təqdir edirəm. Onlar vətəndaş olaraq öz hüquqlarından istifadə edirlər. Artıq aksiya üçün razılıq da alınıb. Aksiyanın keçirildiyi tarixdə parlamentin iclası da var. Gəncliyimiz də siyasiləşmədən kənar olaraq bu xətanın aradan qaldırılması tələbinin üzərində israrlı görünür. Ancaq "biz də abidə qoyaq" deyib ucuz yol təklif edənlər də var. Bu, yanlışdır. Söhbət Azərbaycanın Xocalı kimi əsrin faciəsi dediyimiz soyqırımın Gürcüstanda təqdir olunmasından gedir. Bu, ciddi şəkildə regionda prosesləri pozacaq məsələdir".

Z. Məmmədli xatırlatdı ki, bu məsələdə cəmiyyət olaraq mövqeləri birmənalıdır: "Biz bəyanat da vermişik, fikirlərimizi də bildirmişik. Oradakı hadisələrə biganə deyilik. Təbii ki, Gürcüstanın Azərbaycandakı səfirliyi qarşısında da Borçalıya biganə qalmayan insanlarımızın iştirakı ilə aksiyanın keçirilməsi istisna deyil. Sadəcə, daha gözəl olar ki, qısa zamanda Gürcüstan hakimiyyəti baş verənlərə sağlam məntiqlə cavab verib həmin abidənin götürülməsi məsələsini həll etsin. Bununla da məsələ bitər. Hadisənin Azərbaycana gəlməsinin, burada da hansısa formada proseslərin getməsinin bir qədər də uğursuz tərəfini düşünürəm. Yəni iki dövlət arasında daha soyuqqanlı halda məsələnin həllinə getməliyik. Burada da aksiya edə bilərik, ancaq bundan düşmənlər necə istifadə edəcəklər? Bütün hallarda aksiya hüququ əlimizdədir. Biz Azərbaycanın milli maraqlarına toxunulan bir məsələdə sadəcə seyrici olmayacağıq".

Z. Məmmədli Gürcüstan hakimiyyətinin abidəni götürüb-götürməyəcəyi ilə bağlı proqnozunu da verdi: "Onlar bu abidəni götürməlidirlər. "Elat" bayramına, 2014-cü ildən mənim oraya getməyimə yasaq qoyublar. Bu məsələdə Azərbaycanda icmanın təmərküzləşməsindən qorxan zehniyyətin də işi var. Hətta məndə olan məlumata görə, Azərbaycanın təhlükəsizlik orqanlarında çalışan və iflasa uğramış zehniyyətin də oradakı anti-Azərbaycan qüvvələri ilə iş birliyi də olub. Azərbaycan bu xataları artıq duyur. Əsas məsələ icmalaşmanı əngəlləməkdir. Borçalı türklərinin Gürcüstanın siyasi-ictimai həyatında aktiv iştirakını maksimum tormozlamaq istəyirlər. Bununla da gələcəkdə demokratik vəziyyətdən ehtiyatlanaraq, onların icmalaşmasını bütün vasitələrlə parçalamaq istəyirlər. Lakin bu, yanlışdır. Hesab edirəm ki, burada Gürcüstanın dövləti də təhdid olunur. Gürcüstanın içərisinə daxil olan erməni düşüncəsi, "Bütöv Ermənistan" ideyasına sadiq qalanlar, Gürcüstanın dövlətçiliyini təqib edirlər. Yaxşı ki, aydın gürcülər var və onlar bunu görürlər. İndiki Gürcüstan hakimiyyətinin davranışı anti-Azərbaycan, dərin qatda isə anti-türk ovqatındadır. Azərbaycanın siyasi sistemi, mediası bu həqiqəti görməlidir. Çox istərdim ki, ayın 5-də olan aksiya mediamız tərəfindən geniş işıqlandırılsın. Yalnız Saakaşvili dövründə milli azlıqlar üzərindən buxov götürülmüşdü. Həmin addım hesab edirəm ki, Gürcüstanı daha da qüdrətləndirdi. Hesab edirəm ki, bütün icmalara, etnik azlıqlara açılan qapılar, Gürcüstanı bütövləşdirir. Eyni zamanda erməni konsepsiyasına görə, Gürcüstanın monoetnik planı da var. Orada aparıcı da erməni etnosudur. Bu qorxunu Gürcüstan hiss etməlidir. Başa düşməlidirlər ki, bu cür davranışlarla öz dövlətlərini təhdid altına salırlar. Gürcüstan Azərbaycanla nə qədər sıx əməkdaşlıqda olacaqsa, soydaşlarımız ictimai-siyasi həyata sağlam inteqrasiya edəcəklərsə, o qədər məğlubedilməz Gürcüstan olacaq. Bu coğrafiyada Türkiyə, Gürcüstan və Azərbaycan vəhdəti gələcəkdə bütövlükdə bölgənin taleyini həll edən gücə çevrilə bilər. Ermənilərin abidəni götürməməsi təqdirdə ayrı-ayrı yerlərdə təşəbbüslərimiz olacaq. Bütün bunlar isə gərginliklər yaradacaq. Gürcüstan hakimiyyəti tərəddüd edəcəksə, ora girən qüvvə Azərbaycanın düşməni olacaq. Onlar Rusiya, Ermənistan, İrandır. Bunun da fərqində olmalıdırlar. Gürcüstanın siyasi partiyalarında da bu məsələnin müzakirəsi və bizim mövqeni dəstəkləyənlərin çoxluğu haqqında informasiyam var".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

---

# Mənim evimdən Səyavuş Novruzova nə?!..



**Jalə Mütəllimova**

**Dünəndən tüstüm təpəmdən çıxır. "Jurnalistlərə ev verilib, Orduxana cavab versinlər", - deyir YAP yetkilisi, deputat Səyavuş Novruzov. Bunu tək o demir. Bizə bu evə görə çoxu çox söz dedi. Bir onu anlaya bilmirəm ki, mənim evimdən Səyavuş Novruzova nə?!..**

Adama ömründə bir dəfə sual da verməmişəm ki, dövlətin və Prezidentin sənə qazandırdıqlarının qarşısında hansı işi görmüsünüz, müəllim?

Qaldı bu fikirləri səsləndirən digər deputat və məmur "ordusu"na, hə, qardaşlar, yaxın oturun sizə sözüm var:

Sizin dövlətdən oğurladığınız, yediyiniz, qazandığınız, ört-basdır edilən cinayətləriniz, övladlarınızın məlum əməlləri, fırıldaqlarınız, ədalətsizlikləriniz, insanlara divan tutmaqlığınız olmasaydı, indi bu durum yaranmazdı. Heç orduxanlar da olmazdı. Əvvəlcə dövlətə və prezidentə olan borcunuzu bir zəhmət, sizlər ödəyin. Onsuz da bircə ovuc qalan media adamları dövlətinin də, onun siyasi siması olan indiki prezidentin də, proseslərin də bacardıqları qədər təəssübündədir. Öz dərdinizi çəkin, balanslı canınıza, nəhayət ki, bir azca əziyyət verin. Qazandıqlarınızın qarşılığında nəsə edin, mərd olun. Ölkənin gerçək media adamları, satılmayan, oğru olmayan, cibgirlik bacarmayan, dövlət, vətən, vətəndaş sevgisi olan jurnalistlər onsuz da ağılları kəsəndən cibləri boş, dövlət deyə-deyə qocalıblar...

Söyməyə gəlincə, ümumiyyətlə, bu, normal insan işi deyil? Yox əgər söymək istəyirsə, qoy Səyavuş Novruzov özü söysün. Nə də olsa, mənim etdiklərim sevgidən və sayğıdan olub. Maddi olaraq hər hansı qarşılıq görməmişəm və istəməmişəm. Amma elə Səyavuş Novruzov daxil, yüzlərlə "dövlət adamı" var ki, addımına görə də ödəniş alıb dövlətdən. O üzdən əslində "söy ki, söyənsən" layihəsinə start verməmk gərəkdirsə, bunu birinci parlamentdə Novruzov tipli deputatlar edə gərək. Hadi bismillah, görək sizləri də, bircə dəfə ağzınızı açıb elə danışasınız ki, sizi Orduxan yox, ictimai rəy söyməsin, alqışlasın.

Bu dövlətin bir problemi də elə sizlərsiniz, vəziyyət yarananda ağzınızın açılmasındansa, açılmaması məsləhət olan adamlar...

YENİ MÜSAVAT
N 26 (7196) 4 fevral 2019

**Ermənistanın baş naziri Nikol Paşinyan Almaniyaya səfəri çərçivəsində alman kansler Angela Merkel ilə görüşüb. Görüşdən sonra kanslerin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı dedikləri Azərbaycan tərəfdə diqqət çəkib. A.Merkel bildirib ki, münaqişənin həlli üçün zaman lazımdır. Sanki Qarabağ probleminin həlli üçün 26 illik danışıqlar azdır.**

# Merkeldən Qarabağ açıqlaması etiraz doğurdu

## Elçin Mirzəbəyli: "Qarabağ məsələsi İsrail-Fələstin münaqişəsi kimi uzana bilməz, çünki..."



Merkelin dedikləri Qarabağ münaqişəsinin də İsrail-Fələstin münaqişəsi kimi uzanıb-uzanmayacağı yönündə suallar yaradıb. Doğrudur, ekspertlərin məsələyə baxışları nikbindir. Tezliklə Dağlıq Qarabağ düyününün çözüləcəyinə ümidlər var. Amma bununla belə, Avropanın ən güclü dövlətlərindən sayılan Almaniya kanslerinin münaqişənin həlli üçün hələ zamanın yetişmədiyini ifadə etməsi müzakirələrə yol açmaya bilməz.

Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"da Merkelin dediklərinə bu cür şərh verdi: "Almaniya kanslerinin Paşinyanla görüşdən sonra səsləndirdiyi fikirlər onun ötən ilin avqustunda Bakıda və İrəvanda verdiyi bəyanatdan bir qədər fərqlənir. Ötən ilin avqustunda Angela Merkel ölkəsinin Qarabağ münaqişəsinin həllinə dəstək olmaq niyyətində olduğunu və prosesin intensivləşməsinin vacibliyini vurğulamışdı. Eyni fikirlər xanım kanslerin ötən ilin noyabrında postsovet məkanında mövcud olan münaqişələrin həlli ilə bağlı açıqlamasında yenidən və daha qətiyyətlə təkrarlandı. Almaniya kanslerinin danışıqlar prosesində müsbət dinamikanın yaranmasından sonra problemin həlli üçün uzun müddət vaxt tələb olduğunu söyləməsi isə çox güman ki, Paşinyanla görüşdən sonra formalaşmış, yaxud Almaniya və müttəfiqlərinin Ermənistanla bağlı hansısa ortaq mövqeyi ilə bağlı olan bir yanaşmadır. Ola bilsin ki, Merkellə görüşdə Nikol Paşinyan təmsil etdiyi hakimiyyətin sülhə hazır olduğunu, lakin Ermənistandakı mövcud iqtisadi-siyasi reallıqların kompramislərə getməyə imkan vermədiyini, ictimai rəyin dəyişdirilməsi, hakimiyyətinin möhkəmləndirilməsi, sosial-iqtisadi problemlərin həlli üçün uzun müddətli bir prosesə ehtiyac duyulduğunu bildirib. Mümkündür ki, danışıqlar prosesi ilə bağlı Ermənistanın keçmiş hakimiyyət nümayəndələrinin, bəzi digər siyasi qrupların, daşnakların, separatçıların son aqressiv bəyanatları da elə buna xidmət edir. Ermənistandakı siyasi qrupların, diasporun Qarabağ məsələsində bir-birinə kritik vəziyyətlərdə "ötürmə" etmələri yeni hadisə deyil. Başqa bir məqam isə, çox güman ki, bəzi Avropa dövlətlərinin, o cümlədən Almaniyanın Ermənistanla bağlı ortaq strategiyası ilə də əlaqədar ola bilər. Onlar Ermənistanda Paşinyanın və öz mövqelərinin möhkəmləndirilməsi üçün münaqişənin həllinin mümkün qədər uzadılmasına, paralel olaraq Azərbaycanın mövqelərinin zəifləndilməsinə cəhd göstərə bilərlər. Avropa Parlamentinin Almaniyadan olan deputatlarının Azərbaycana qarşı təxribatları da belə düşünməyə əsas verir. Ermənistana münasibətdə dini amillər, şübhəsiz ki, müəyyən qədər rol oynayır. Amma bu, Ermənistanla bağlı məsələdə həlledici amil deyil. Almaniya Avropa dövləti olsa da, bir sıra məsələlərdə, xüsusilə də Avropanın enerji təhlükəsizliyi ilə bağlı məsələlərdə fərqli mövqedən çıxış edir. Almaniya bir zamanlar Rusiyanın vasitəsi ilə qoca qitənin enerji təminatında oynadığı rolun əldən verilməsindən məmnun deyil. Nabukko layihəsinin iflasa uğraması və Almaniyanın heç bir rol almadığı Cənub Qaz Dəhlizinin reallığa çevrilməsi də Berlini qane etmir. Almaniyanın Azərbaycana qarşı davranışlarında da bu amillər mühüm rol oynayır. İtaliyada Cənub Qaz Dəhlizinə qarşı savaş açan "5 ulduz" partiyalar blokunun arxasından Rusiyanın enerji sektoru ilə bağlı olan müəyyən dairələrin çıxdığı kimi, Almaniyada da üçüncü bir ölkənin Azərbaycanla bağlı məsələlərdə neqativ stimullaşdırıcı rol oynaya biləcəyi ehtimalı həmişə olub və olacaq...".

Politoloq Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmayacağını düşünür: "Qarabağ məsələsi İsrail-Fələstin münaqişəsi kimi uzana bilməz. Əvvəla, bu məsələlərin bir-biri ilə əlaqələndirilməsini doğru saymıram. Digər tərəfdən, Azərbaycan Fələstin deyil, güclü, oturuşmuş bir dövlətdir. Hər halda danışıqlar prosesində irəliləyişin olmayacağı ehtimalı özünün tam təsdiqini taparsa, azərbaycanlılar işğalçı qoşunlara sapand atmayacaqlar. Bizim silah arsenalımızın cüzi bir hissəsi Ermənistanı susdurmaq üçün yetərlidir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Qüdrət Həsənquliyevin Naxçıvandan olan nazirə ittihamına reaksiyalar



## Fəzail Ağamalı: "Dövlət məmuruna söyüş söymək yaraşmaz"

## Novella Cəfəroğlu: "Bu situasiyada Talıbov Naxçıvanı normal idarə edir"

**Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədri, deputat Qüdrət Həsənquliyev Naxçıvan Muxtar Respublikasının Azad Cabbarov adlı nazirinə qarşı ittihamlar səsləndirib. O bildirib: " Mövcud vəziyyəti dəyişmək üçün Naxçıvanın sosial-iqtisadi inkişafına dair Xüsusi Dövlət Proqramının qəbul edilməsinin, Naxçıvanda Azad İqtisadi Zonanın, istehsal və emal müəssisələrinin yaradılması yolu ilə yeni iş yerlərinin açılmasının vacibliyini qeyd etmişdim.**

Bundan sonra Naxçıvandan Azad Cabbarov adlı bir nazir və başqa bir vəzifəli şəxs, prezident və iqtidar partiyası mənəvi terrorla məşğul olanları qınadığı halda, prezident və ailəsi təhqir olunan zaman susan bu mənfur ünsürlər sosial şəbəkədə Naxçıvanı təmsil edən deputat olmama baxmayaraq, məni Naxçıvanın "daxili işlərinə" qarışmaqda ittiham etdilər. Məni siyasi fəaliyyətimə aidiyyəti olmayan yaxınlarımla birlikdə nalayiq formada təhqir ediblər. Sözün bütün mənalarında böyüklərinə dediklərini mənə ünvanlamışlar. Prezidentin yürütdüyü siyasətə qarşı çıxan bu quduzlaşmış, xaricdən söyüş söyən gədələrdən heç nə ilə fərqlənməyənlər əslində ölkə rəhbərliyinə meydan oxuyurlar. Naxçıvan Azərbaycanın ayrılmaz tərkib hissəsidir və onlar cəzalanmalıdırlar. Vasif Talıbov vaxtı ilə türk vətəndaşı tərəfindən ən ağır formada təhqir olunub ittihamlara məruz qalanda Milli Məclisdə mən onun şərəf və ləyaqətinin müdafiəsinə qalxsam da, yazılı müraciət etməmə baxmayaraq, o, məni təhqir edənlər barədə heç bir tədbir görmədi. Əksinə, həmin şəxsin təltif olunması barədə təqdimat verdi".

Dolayısı ilə deputat vurğulayıb ki, iqtidara zərbəni daxildən vururlar.

Deputat Fəzail Ağamalı "Yeni Müsavat"a məsələ ilə bağlı bildirib ki, Naxçıvan kifayət qədər həssas yerdir: "Əvvəla onu deyim ki, bu, Qüdrət Həsənquliyevin şəxsi fikridir. Onun fikirlərinə həmkarım kimi hansısa münasibət bildirmək istəməzdim. Hər halda Naxçıvan kifayət qədər həssas yerdir. Naxçıvanın bugünkü səviyyəyə qalxmasında, ölkə prezidentinin oradakı siyasətinin reallaşmasında Vasif Talıbovun müstəsna xidmətləri var. Bu, danılmaz bir faktdır. Hər il Naxçıvana gedirəm. Oradakı abadlığı, inkişafı öz gözlərimlə görürəm. Təbii ki, bu, məndə fərəh doğurur. Bütün sahələrdə olduğu kimi təbii ki, Naxçıvanın da bundan da çox inkişaf etməsinə, oradakı inkişafın daha yüksək səviyyəyə qalmasına ehtiyac var. İmkan daxilində də Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi Vasif Talıbov bununla bağlı addımlarını atır. Bizim hər birimiz, xüsusi olaraq da iş adamlarımız Naxçıvana diqqət yetirməlidirlər. Orada yeni iş yerlərinin, müəssisələrin açılması üçün özəl şirkətlər oradakı fəaliyyətlərinə geniş yer verməlidir. Bütün bu addımlar atılmalıdır ki, Naxçıvan daha da inkişaf edib, gözəlləşsin. Belə olarsa əhalinin səviyyəsi daha da yüksələr. Çünki ölkə prezidentinin çağırışı budur. Son yığıncaqların birində ölkə prezidenti belə bir fikir söylədi ki, "hər şey yaxşıdır, istəyirəm ki, daha da yaxşı olsun". Yəni daha da yaxşı olmaq üçün bizim hər birimiz dövlətçiliyə öz töhfəmizi verməliyik. Bu baxımdan mən Qüdrət Həsənquliyevin hansı problemlə üzləşməsini də təqdir etmirəm. Kimsə onu söyübsə, təhqir edibsə, bu, doğru deyil. Dövlət məmuruna söyüş söymək yaraşmaz. Ümidvaram ki, məsələ bundan sonra daha da dərinləşməyəcək. Qarşılıqlı anlaşma əsasında hər kəs öz səhvini başa düşəcək və münasibətlər normal müstəviyə keçəcək".

Əslən naxçıvanlı olan hüquq müdafiəçisi Novella Cəfəroğlu da mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. O bildirib ki, Naxçıvanın idarə edilməsinə xüsusi bacarıq lazımdır: "Naxçıvanın bir tərəfi İran, digər tərəfi isə Ermənistandır. Orada, təbii ki, xüsusi və güclü idarəetmə lazımdır. Talıbov da oranı çox yüksək səviyyədə idarə etməyi bacarır. Naxçıvana Talıbov lazımdır. Məlumatlı deyiləm ki, orada hansısa nazir hansı işi görür, kimə nə deyir. Bu situasiyada Talıbov Naxçıvanı normal idarə edir. Onu da deyim ki, Naxçıvanda məmurların özlərindən başqa demək olar ki, heç kim qalmayıb. Sadə əhalinin əksəri Bakıda və digər yerlərdədir. Naxçıvan hər zaman strateji yer olub. Oraya da xoşumuza gəlsə də, gəlməsə də Talıbov kimi adam lazımdır. Bir yanda Ermənistan, digər yanda da ona kömək edən İran var. Bütün bunların fonunda isə Talıbov öz yerindədir. Məsələ ilə bağlı yalnız bunu deyə bilərəm".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 26 (7196) 4 fevral 2019

# Televiziyalara donuz qripi çağırışı edildi: virus haqda sosial çarxlar hazırlayın!..

## Deputat və tanınmış pediatr isə əhalini panikaya düşməməyə səslədi: "Bizdəki virus ştammı mutasiya olunub və təhlükəli deyil..."

**"Əvvəla, qrip törədən viruslar fərqlidir. Onlar üç ştammdırlar və daimi mutasiya olunurlar. "A"növü daha təhlükəlidir və ölümcül ağırlaşmalar olan növdür. Azərbaycanda isə rəsmi məlumat budur ki, H1 N1 virusunun "A" ştammı mutasiya olunub və təhlükəli deyil. Biz də rəsmi məlumata inanmalıyıq".**

Bu fikirləri tanınmış pediatr Vaqif Qarayev "Yeni Müsavat"a ölkədə A/H1N1 virusunun mövcud olması haqda danışarkən bildirdi. Onun sözlərinə görə, ilk növbədə 5 yaşdan aşağı uşaqlar, 65 yaşdan yuxarı insanlar və hamilələr özlərini qorumalıdırlar: "Xəstə uşağı məktəbə buraxmaq olmaz və təcrid olunmalıdır. Amma o demək deyil ki, xəstəlik varsa, peyvənd olunmalıdır. Bizdə hələ bu virusla bağlı poliklinikalarda peyvənd edilən yoxdur. Sadəcə, cəmiyyət olaraq bir mübarizə aparmalıyıq, çaşdırıcı informasiya yaymaq olmaz, panika yaratmaq yolverilməzdir. Bu baxımdan fikrimcə, maarifləndirici sosial çarxlar hazırlanmalıdır.

Dövlət telekanalları da, özəl televiziyalar da yarım dəqiqəlik sosial çarxları təqdim etməlidirlər ki, əhali məlumatlı olsun".




V.Qarayevin sözlərinə görə, 2009-cu ildə donuz qripi şayiələri meydana çıxanda bəzi işbazlardan bundan sui-istifadə etdilər: "O vaxt qoruyucu maska biznesində işbazlar böyük pul qazandı. Ona görə deyirəm ki, panika yolverilməzdir. İnsanlar tez-tez əlini yumalı, kütləvi, sıxlıq olan yerlərdə çox gəzməməli, qoruyucu maska taxmalı, qripə yoluxan insanlara maye çox qəbul etməli, meyvə-tərəvəzə üstünlük verməlidir. Təbii ki, həmin virusun olması təsdiqlənir. Ancaq deyildiyi kimi, mutasiya olunub və təhlükəli deyil. Məsələn, Gürcüstanda vəziyyət çox ağırdır. Bu virusdan xüsusi qorunma yolu yoxdur. Biz burun tutulmasına da qrip deyirik, hansısa öskürək halına da. Əhaliyə düzgün məlumat verilməlidir".

Pediatr bildirib ki, Azərbaycanda qızılca da var: "Eyni zamanda, Ukrayna, Gürcüstan, Serbiyada var. Peyvəndlə bağlı müxtəlif ölkələrdə proqnoz verilir. Ümumdünya Səhiyyə Təşkilatı məlumat verir ki, qış aylarında hansı virusun ştammı daha çox yayıla bilər. Bu gün ən çox istifadə edilən polivaksin peyvəndidir. Amma yenə deyirəm ki, H1 N1 virusuna qarşı peyvənd olmayıb".

"Tək Azərbaycanda deyil, digər ölkələrdə də, xüsusilə, qış fəslində virus infeksiyalarının yayılması müşahidə olunur. Amma bizdə epidemiya şəklində deyil". Bunu isə modern.az-a Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev söyləyib. Deputat qeyd edib ki, bu kimi hallar qanunvericiliklə əlaqədar məsələ olmadığından, komitənin deyil, Səhiyyə Nazirliyinin səlahiyyətindədir: "Ağır formada keçirilən virus infeksiyasının, analizlərlə tam təsdiq olunmayıbsa, quş yaxud donuz qripi olduğunu dəqiq deyə bilmərik. Analizlərin nəticələri ortaya qoyulduqda və müəyyən bir toplum içərisində virus yayıldıqda, ciddi tədbir görməyə ehtiyac yaranır. Məlumatıma görə, Respublika Kliniki Mərkəzinin İnfeksiya şöbəsində xüsusi mərtəbə ayrılıb, yalnız qrip infeksiyası ilə müraciət edənlər üçün fəaliyyət göstərir. Orada da ciddi, ağır vəziyyətdə olan xəstələr yoxdur".

Deputat qeyd edib ki, Səhiyyə Nazirliyinin infeksiyaların yayılmasını önləmək üçün gördüyü işləri dəstəkləyir. O, bununla yanaşı, əhalinin maarifləndirilməsinin vacibliyini də vurğulayıb: "Epidemiya əleyhinə görülən tədbirlər kifayət qədər yüksək səviyyədədir. Amma paralel olaraq, əhalinin ciddi maarifləndirilməsinə böyük ehtiyac var. Toplum halında, insanlara müxtəlif xəstəliklər, onların əlamətləri, müalicə yolları, həkimə müraciət etməyin vacibliyi barədə məlumatlar geniş çatdırılmalıdır. Önləyici tədbirlərin effektiv olması üçün paralel maarifləndirmənin artırılması önəmlidir. Əhali həm özünü, həm də ailə üzvlərini, ətrafındakıları qorumağı öyrənməlidir. Əgər ailə üzvlərindən biri xəstədirsə, mütləq tibbi maska taxmalı, digər şəxslərlə yaxın kontaktdan çəkinməlidir. İctimai nəqliyyatdan istifadə edərkən, kollektiv içərisində olarkən, məsafənin saxlanmasına, dezinfeksiyaedici preparatlardan istifadəyə diqqət edilməlidir. İnsanlar immunitet vəziyyətindən asılı olaraq, özlərini qorumalıdırlar. Əgər infeksiya varsa, Səhiyyə Nazirliyi hər kəsə nəzarət üçün bir həkim qoya bilməz. Ona görə, fərd olaraq, hər kəs səhhətinin qeydinə qalmaqda maraqlı olsun".

Qeyd edək ki, fevralın 1-də Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı ofisinin rəhbəri Hande Harmancı deyib ki, bu qrip insanlarda müşahidə edilən İnfA (H1N1) pdm09-dur: "Hazırda Azərbaycanda A/H1N1 virusu var, amma bu yeni virus deyil və bu virus artıq "donuz qripi" də adlandırılmır. "Donuz qripi" deyilən qrip yoxdur. İnsanlarda müşahidə edilən virus insani qrip, donuzlarda müşahidə edilən donuz qripidir. Donuz qripi donuzdan insana keçdikcə və insandan insana keçdikcə buna artıq mövsümi qrip deyilir. İlk dəfə 2009-cu ildə dünyada son pandemiya olub. Həmin zaman yeni virus yaranaraq insanlara keçmişdi. Son pandemiyanı yaradan Inf A/H1N1 pdm09 olub".

Respublika Taun Əleyhinə Stansiyasının laboratoriyasında 16 nəfərdə A/H1N1 virusu aşkarlanıb. Səhiyyə Nazirliyinin baş epidemioloqu İbadulla Ağayev isə bildirib ki, A/H1N1 virusu müşahidə edilən 16 nəfərdən hazırda xəstəxanada olanı yoxdur, onlar hamısı sağlam vəziyyətdədir.

Yeri gəlmişkən, soyuq mövsümü başlayandan bəri Moldovada 12 nəfər qripdən həlak olub. Azərtac yayıb ki, bu barədə Moldovanın səhiyyə, əmək və sosial müdafiə nazirliyinin dövlət katibi Alyona Serbulenko məlumat verib. Onun sözlərinə görə, qripdən ölənlərin hamısında A (H1N1) virusu aşkarlanıb. Onlar qripə qarşı vaksin olunmayıblar.

Moldovada hazırda qrip xəstəliyinin artma tendensiyası davam edir. A.Serbulenko əhalini qripə qarşı vaksin olunmağa çağırıb.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**



# Anası prezidentə müraciət edən Hüseyn Abdullayevi bağışlamaq olarmı?

**Fəzail Ağamalı:** "Şəxsi münasibətlərdə hər hansı bir məqam olsaydı, onu bağışlamaq olardı"

**Fərəc Quliyev:** "Bu dəfə Hüseyn Abdullayevin vəziyyəti daha qəlizdir"

**2018-ci il aprelin 22-də Türkiyədə saxlanılaraq Azərbaycana təhvil verilən sabiq deputat Hüseyn Abdullayevin anası Zeynəb Abdullayeva Prezident İlham Əliyevə müraciət edib. Z.Abdullayeva ahıl yaşda olduğunu və oğlunun səhhətindəki problemləri nəzərə alaraq onun barəsində humanizm və mərhəmət nümayiş etdirməyi dövlət başçısından xahiş edib.**

Qeyd edək ki, "Quska" ləqəbli Hüseyn Abdullayev 2007-ci ildə - deputat olarkən parlamentdə qalmaqal yaradaraq, deputat Fəzail Ağamalı ilə əlbəyaxa dalaşmışdı. Buna görə həbs edildi, bir müddət sonra əfv olundu. Daha sonra isə Avropaya mühacirət etdi, orada Azərbaycan iqtidarı əleyhinə fəaliyyətə başladı. Həmçinin, onun iqtisadi cinayətləri də aşkarlandı.

O, ötən ilin aprelində Türkiyədə həbs edilərək. Azərbaycana gətirildi. Hazırda Bakı İstintaq Təcridxanasındadır, barəsində açılan cinayət işi üzrə istintaq davam edir. Ötən həftə isə xəbər yayıldı ki, Hüseyn Abdullayev təcridxanada aclıq aksiyası keçirir. Bu haqda "Yeni Müsavat"a daxil olan məlumatda xəbərdə deyilir ki, Hüseyn Abdullayev beynəlxalq təşkilatlardan Azərbaycan hökümətinə daxil olan sorğulara doğru cavabların verilmədiyini iddia edir və buna etiraz olaraq aclıq aksiyası keçirir. Həmin gün də onun anasının əfv müraciəti yayıldı.

Sabiq deputat Hüseyn Abdullayevin anasının müraciətinə onun eks həmkarları Fəzail Ağamalı və Fərəc Quliyevin münasibətlərini öyrəndik.

Deputat Fəzail Ağamalı deyir ki, 11 il əvvəl parlamentdəki məlum davadan sonra Hüseyn Abdullayevin bir daha əvvəlki mövqeyinə qayıtmayacağını düşünüb. Amma sonra görüb ki, vəziyyət dəyişməyib: "Düşünürdüm ki, o, bağışlandıqdan sonra, necə ki, məhkəmə zalında hər kəsdən, o cümlədən məndən də üzr istədi, səhvini etiraf elədi, bundan sonra davranışları dəyişəcək. Ancaq oradan çıxandan sonra öz ampluasında qaldı, fəaliyyətini xoşagəlməz müstəvi üzərində qurdu və davam elədi. Burada ola bilsin ki, şəxsi münasibətlərdə hər hansı bir məqam olsaydı, onu bağışlamaq olardı".

Fəzail Ağamalı deyir ki, hazırda durum fərqlidir: "Söhbət ümummilli maraqlardan gedirsə, dövlətin maraqlarından irəli gəlirsə, bu baxımdan hər bir Azərbaycan vətəndaşı harada olmasından asılı olmayaraq vətəninə, dövlətinə xidmət etməyə borclu olmalıdır. Bu mənim dəyişməyən mövqeyimdir. O, Avropada olanda sosial şəbəkələrdə ayrı-ayrı açıqlamalarına baxırdıq. Görürdük ki, düz yolda deyil, ayrı-ayrı adamları hədələyirdi, qeyri-qanuni fəaliyyətdə bulunurdu. Bəlli olduğu kimi qanunsuz əməllərinə görə barəsində cinayət işi başlanıb. Anası vaxtilə də mənə müraciət eləmişdi. Bağışlanmasını xahiş etmişdi. Mən də ona hörmətlə yanaşaraq bir ana kimi başa düşdüm. Mən də valideynəm, ata kimi onu başa düşdüm və Hüseyn Abdullayevi bağışladım. Gərək bundan nəticə çıxaraydı. İndi anasının balasına ürəyi yanır, oğlu kimdir, nəçidir fərq etmir, ana anadır. Ancaq anası vaxtilə ona gərək imkan verməzdi ki, bu qanunsuz əməllərlə məşğul olsun. Bildiyim qədər anasının sözünə baxan adamdır. Bilmirəm, bundan sonrası hüquq mühafizə orqanlarının işidir, onun törətdiyi əməllərə qiymət vermək də məhkəmənin işidir. Onun bağışlanıb-bağışlanmamağı haqda fikirlər məhkəməyə təsir kimi qiymətləndirilə bilər. Hüquq mühafizə orqanlarının obyektivliyinə inanıram. Kim qanunu pozursa, qanun qarşısında cavab verməlidir".

Deputat Fərəc Quliyev isə Hüseyn Abdullayevin anasının əfv diləyinə dövlət başçısı tərəfindən qiymət verilməli olduğunu deyir: "Özüm məhbəsdə olmuşam, Allah bütün məhbusların qapısını açsın. Amma əfv birbaşa prezidentin iradəsindən asılı məsələdir. Bir dəfə ona güzəşt elədilər. Çox təəssüflər olsun ki, o, qanunsuz əməllərini dayandırmadı. Hesab edirəm ki, bu dəfə çox çətin ki, güzəşt olunar. Birinci dəfə güzəştdən sonra xaricdən ölkəmizə qarşı söyüş kampaniya aparıldı, hesab edirəm ki, bu dəfə Hüseyn Abdullayevin vəziyyəti daha qəlizdir".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 26 (7196) 4 fevral 2019



## Zoonoz virus neyroinfeksiyasına yoluxmuş vələdin köynəyi

Samir SARI

**Bizim kəndin həvəskar şairlərindən biri hələ sovet vaxtı klassik aşığımız Alının şeirinə bir satirik nəzirə həsr etmişdi, iki misrası beləydi:**

"Dədəsi, babası qodux minənin,
Balası maşında bəy oldu, getdi".

Şair bunu ona görə belə yazmışdı ki, həmin o keçmişdə "qoduq minən" kasıb kişilərdən birinin nəvəsi atasının maşınıyla onun yanından keçərkən, eşşəklik eləmiş, el sənətkarını toza basmışdı. O da bu qudurğanlığa bu cür reaksiya vermişdi, aydırmaq istəmişdi ki, adam gərək keçmişini, hardan gəldiyini unutmasın, beş manat pul görəndə qudurmasın.

Fəqət, əziz oxucular, siz də bilirsiniz, mən də bilirəm ki, 5 manat (bu, şərti məbləğdir) görəndə qudurmamaq əldə deyil. Hər yüz adamdan beşi (aşağı, yuxarı da ola bilər) öz sadəliyini qoruya bilər, qalan doxsan beşi mütləq zoonoz virus neyroinfeksiyasına (bu, quduzluğun elmi adıdır) yoluxacaq.

Özü də 5-10 milyon pul görəndən sonra zoonoz virus neyroinfeksiyasına yoluxan adam heç də sudan, işıqdan qorxmur. Tam əksinə, tikdirdiyi qəsrin ortasında hovuz və su fəvvarəsi də quraşdırdar, üstəlik, onu sayrışan işıqlarla bəzətdirər. Çünki pulun qudurtduğu insanla quduz heyvanın cırmağqlayıb, dişləyib qudurtduğu insanın arasında böyük fərq var. Birinci daha təhlükəlidir. İkincini beş-altı iynəylə sağaltmaq mümkündürsə, birincinin iynəsi gərək yuxarılardan, özü də yoğun şəkildə vurulsun.

Bu ölkə pul-paradan qudurmuş adamlarla doludur. Onlar ilk baxışdan ağıllı adam kimi görünə bilərlər. Danışdırmasan, bilməzsən. Hətta onlar çox rəvan, sakit danışa da bilərlər, amma bir gün içlərindəki qudurğanlığı göstərəcəklər. Məsələn, tutaq ki, eləsinin birini qonaq edirlər, önünə 50 dollarlıq viski (Bill Qeyts içəndən) qoyurlar, o, şüşəni əlinə götürüb ikrahla baxır və deyir: "Fuu, nə ucuz... mən 3 min dollarlıq viski içirəm".

Bax, bu həmin adamdır. Qudurub artıq. Atası 2 manatlıq "Kizilovıy napitok" içirdi, özü 50 dollarlıq viskini bəyənmir.

Başqası da var. O da 200 min manatlıq avtomobili daşa-divara vurur, aşırır, türkün sözü, xurdaya döndərir, elə həmin gün gedib o avtomobilin eyni rəngdə olan başqasını alır, evə qayıdır ki, qonum-qonşu bilməsin.

Bu yaxınlarda qoluna bir neçə yüz min manatlıq saatlar taxan, öz adını köynək, şərab brendinə çevirən bir keçmiş məmurdan yazırdılar. Adam öz davranışıyla, malik olduğu oğurluq sərvəti nümayiş etdirməklə necə ad çıxarmışdısa, söhbəti hələ də gedir.

İndi sizə elə biri haqqında da danışım. İntəhası, bu adam özü məmur deyil, atası məmurdur. İşverənlik kimi çıxmasın, dövlət şirkətlərindən birinin... prezidenti də deyil, vitse-prezidentlərindən biridir.

O adamın xaricdə təhsil alan vələdinin geydiyi köynəyin birinin qiyməti neçə olsa, yaxşıdır? Təxmin edin. Əminəm ki, heç biriniz köynəyin qiymətini düzgün təxmin edə bilmədiniz, uzağı 1000 dollarda dayandınız. Amma vitse-prezident züryətinin geydiyi köynəyin qiyməti, bizim pulla 15 min manatdır. Bu köynək niyə belə bahadır? Çünki o, bu köynəyi xüsusi hazırlatdırıb, qızıl saplarla işlətdirib, güman ki, düymələri-filanı da qızıldan, brilyantdandır. Üstəlik, köynəyin bəzi yerlərinə adamın adının inisialları həkk olunub. Ondan başqa heç kəsdə bu köynəkdən yoxdur, ola bilməz.

Ən maraqlısı budur: ərköyün vələd 30 min ödəyərək bu köynəkdən iki ədəd hazırlatdırıb ki, dəyişəkli geysin. Ola bilər, allergiyası var, başqa materialdan köynək geyəndə dərisi səpir. Bəs onun eşşəyinin belinə köhnə palan atan, əyni 15 ildən bir təzə paltar görən babasının allergiyası yox idimi? Yəqin ki, ağsaqqalda da müəyyən allergiyalar olub, amma o bunu bilməyib.

Onun nəvəsi dövlət büdcəsindən oğurlanmış milyonlarla londonlarda, parislərdə ona görə özünü belə aparır ki, qudurub. Daha dəqiqi, onu qudurdan qudurdub.

İndi yəqin ki, bəzi maraqlı adamlar ya zəng edəcək, ya da daxili poçta mesaj yazaraq həmin o 15 minlik köynək geyən oğlanın kimin oğlu olduğunu soruşacaq. Deyim ki, belə lap mələklərin dördü (Əzrayıl, Mikayıl, Cəbrayıl və İsrafil) də gəlsə, bundan artıq heç nə deməyəcəm. Bu, real faktdır və ümumiləşdirilmiş obrazdır. Bu cür qudurmuşlar çoxdur. Biri 15 minlik köynək geyir, o biri də qızlara 15 minlik telefon alır və ya 10 min dollarlıq şampan partladır...

---

**Rusiya Ermənistanı bəsləməkdə davam edir. 2020-ci ildə Kreml İrəvana 4 SU-30SM qırıcı təyyarəsi satacaq. Texnikanın ixrac qiymətindən xeyli ucuz, Rusiya ordusu üçün nəzərdə tutulan qiymətdə olacağı bildirilir. On illərdən bəri ilk dəfə Ermənistan Hərbi Hava Qüvvələri işlənmiş deyil, yeni aviatexnika alacaq.**



# Ermənistan Rusiyadan qırıcılar alacaq - Azərbaycan nə etməlidir?





**Yaşar Aydəmirov:** "Paşinyanı ələ almaq üçün 1-2 silah hədiyyə edilə bilər"
**Şair Ramaldanov:** "Qarabağda onların tətbiqi mümkün olmayacaq"

Ermənistana satılacaq bu silahlarla bağlı müxtəlif fikirlər səslənir. Rəsmi İrəvanın bu texnikanı almağa gücünün yetmədiyi hər kəsə məlumdur. Bu baxımdan üzdə silah alış-satışı kimi görünsə də, Rusiyanın bu təyyarələri Ermənistana peşkəş edə biləcəyi yönündə müxtəlif fikirlər səslənir.

Kremlin Ermənistanda baş nazir Nikol Paşinyan iqtidarının vəzifəsinin icrasına başlayandan sonra Qərbə doğru meyillənməsinin qarşısını almaq üçün bu addımı atdığı ehtimal edilir. Hərbi ekspertlər 4 qırıcı təyyarənin qarşılığında rəsmi Moskvanın Ermənistan qarşısına şərtlər qoyacağını istisna etmirlər.

Bütün bunların fonunda Azərbaycanın nə etməli olduğu barədə də suallar yaranıb. Rəsmi Bakının balansı qorumaq üçün Rusiyadan silah almasının vacibliyi vurğulanır. Eyni zamanda, İsrailə də üz çevirməsindən söz açılır.

General-leytenant Yaşar Aydəmirov "Yeni Müsavat"a açıqlamasında bunları dedi: "Ermənistanın elə bir qırıcı təyyarələr almağa imkanı varmı? O təyyarənin birinin qiyməti 15 milyondan az deyil. Elə 10 dənə alsa, bu 150 milyon edir. Bu pul onlarda varmı? Digər tərəfdən Azərbaycanın nəinki Rusiya ilə, başqa dövlətlərlə də uzunmüddətli müqavilələri var. O müqavilələrin icra müddətləri var. Əgər üç il bundan qabaq hər hansı bir dövlətlə müqavilə imzalanıbsa, bunun müddəti var. Bir faktı da deyim ki, ermənilər o qədər silah alsalar belə, Azərbaycanla tarazlıq məsələsi olmayacaq. Çünki ermənilərin buna gücü çatmaz. Silahlar almaq üçün güclü iqtisadiyyat, valyuta ehtiyatları lazımdır ki, o silahları ala bilsin. Yeni bunlar boş şeylərdir, ermənilərin növbəti təbliğat xarakterli şoularıdır. Belə şoulara fikir verməkdə lazım deyil. Azərbaycan ilk növbədə, hazırda silah almasa belə, əlindəki silahlar kifayət qədər güclüdür. Amma unutmaq olmaz ki, Azərbaycan silah alışını heç zaman dayandırmayıb. Bu barədə heç düşünmür də. Çünki yeni modelli silahlar icad olunur, ordunu yüksək səviyyədə saxlamaq üçün silah alışı davam etməlidir. Düşünürəm ki, Paşinyanı ələ almaq üçün Rusiya Ermənistana 1-2 silah hədiyyə edə bilər, şərtlərlə də bunu etməsi mümkündür. İstənilən halda bu, Azərbaycanla balansa heç bir təsir etməyəcək. Paşinyan öz ordusunda qayda-qanunu bərpa etsin, sonra danışsın".

Digər hərbi ekspert Şair Ramaldanov hesab edir ki, bu qırıcı təyyarələr Ermənistana heç bir üstünlük verməyəcək: "İlk növbədə, o təyyarələrin üstünlüyünü nəzərə alsaq, o, geniş hava məkanında istifadə olunacaq təyyarələrdir. Əgər biz Qarabağ bölgəsini götürsək, demək olar, onlar bir göz qırpımında həmin hava məkanından çıxırlar. O təyyarələrin alınıb-alınmayacağı barədə çox suallar var. Çünki burada bir neçə amil ortaya çıxır. Ermənistanın iqtisadi vəziyyəti hər kəsə bəllidir. Onların bu gün imkanları yoxdur ki, o təyyarələri alsınlar. Digər tərəfdən, o təyyarələri idarə edən pilot heyəti ilə Ermənistan ordusu təmin olunmayıb. Onlar hələ ki öyrənməlidirlər. Bunlar təkcə mənim fikirlərim deyil, analitiklər də belə deyirlər. Fərz edək ki, Rusiya bu təyyarələri hədiyyə edəcək, Ermənistan da əldə edəcək. Amma yenə də Azərbaycan Silahlı Qüvvələrinin hava hücumundan müdafiə sistemləri bu gün hər hansı bir uçuş aparatlarının qarşısını almağa və uçuş aparatından müdafiə etməyə imkan verir. Bilirsiniz ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş komandanı, cənab prezident İlham Əliyev Belarusda olanda orada memorandum imzalandı. Bu memorandum nəticəsində Azərbaycanın yeni nəsil hava hücumundan müdafiə sistemlərinin alınması və köhnə radarların yeni nəsil radarlarla yenilənməsi, müasirləşdirilməsi istiqamətində Belarus mütəxəssisləri ilə müqavilə imzalanıb. Onlar burada o işləri aparırlar. Bu gün Azərbaycanın hava məkanı hava hücumundan müdafiə cəhətdən tam təminatlıdır. Ona görə də Ermənistan hansı uçuş aparatlarından silahlansa da, onlar öz məqsədlərini, tapşırıqlarını yerinə yetirə bilməyəcəklər. Bir daha qeyd edim ki, bu 4 təyyarə Ermənistana heç nə verə bilməyəcək. Çünki ərazi baxımından Qarabağda onların tətbiqi mümkün olmayacaq. Ona görə ki, oranın hava məkanı çox məhduddur. Azərbaycan isə hava hücumundan müdafiə sistemlərini elə qurub ki, hər hansı bir hava məkanından zərbənin qarşısını ala bilər".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 26 (7196) 4 fevral 2019

# “Azərbaycanda baş verənlər hakimiyyət davası deyil, Azərbaycan davasıdır”

## Fazil Mustafa: “Hamının kütləvi şəkildə kimisə söyməsinin yer aldığı Azərbaycan heç birimizə lazım deyil”

**Prezidentin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov ötən həftə çox ciddi açıqlamalar verdi. Dövlət rəsmisi bildirdi ki, Azərbaycanın müstəqilliyini, onun inkişafını qəbul etməyən, cəmiyyətdə xaos yaratmağa çalışan qüvvələr, xalqımıza düşmən kəsilmiş insanlar var. Onun sözlərinə görə, bu qüvvələr istər ölkə daxilində, istərsə də ölkə xaricində anti-Azərbaycan təbliğatı ilə məşğul olurlar. BQB başqanı, deputat Fazil Mustafa ilə budəfəki müsahibəmizdə əvvəlcə prezident köməkçisinin dediklərinə münasibət öyrəndik.**



**“Müxalifətə ən azı, bir çərçivə verilməlidir ki... cəmiyyət meydan eyforiyasından çıxsın”**

***- Fazil bəy, prezidentin kifayət qədər ciddi statusa malik dövlət rəsmisinin “bu məsələlərdə hər birimiz ayıq-sayıq olmalıyıq” xəbərdarlığı, sizcə, nədən xəbər verir?***

- Fuad Ələsgərov kifayət qədər təcrübəli bir dövlət xadimidir və əslində onun bu xəbərdarlığı da ciddi bir informasiyaya əsaslanır. Bu xəbərdarlıq bizim hamımızın da içində yatır ki, Azərbaycanın müstəqilliyi üçün təhlükə hardan gəlir. Mən hesab etmirəm ki, bu gün müxalif mövqedə duran insanlar hansısa bir şəkildə müstəqilliyə qarşıdırlar. Onlar da müstəqillik uğrunda vuruşmuş insanlardır. Hakimiyyətdə olan insanların da xeyli hissəsində müstəqilliyi özü üçün dəyər bilən insanlardır. Ola bilsin 5-10 nəfər hansısa bir başqa ölkənin maraqlarına daha çox üstünlük verən insanlar da tapıla bilər. Amma Azərbaycan əhalisinin böyük əksəriyyəti müstəqilliyə bağlı insanlardır. İnsanlar da var ki, davranışlarının nəticələrini çox vaxt hesablamadan müstəqilliyimizə zərər vura biləcəyinin fərqində olmurlar. Ona görə də hamımız diqqətli olmalıyıq ki, həm daxildə, həm xaricdə müstəqilliyimizə zərər vura biləcək addımlardan qaçaq. Yəni bir şeyi unutmaq lazım deyil. Azərbaycanda demokratiya adında bir prosesin hansısa xarici güc tərəfindən istənməsinin şahidi deyilik. Təsəvvür edin ki, Azərbaycana İraqdan, Suriyadan, Venesueladan, Tunisdən, Liviyadan fərqli baxan bir zehniyyət yoxdur. Kim bunu mənə isbat eləsə, deyərəm ki, hə, sən artıq özünçün doğru qənaətə gələ bilmisən. Elə şey yoxdur axı. Rusiyamı, Amerikamı istəyir? Nə istəyirlər bu ölkədən? Bu ölkədə doğrudanmı xalqın istədiyi hansısa formada ideal hakimiyyət modeli istəyirlər? Burada hamının istədiyi odur ki, Azərbaycanı necə parçalayıb necə tabe eləsinlər. Ona görə də əslində bu gün artıq Azərbaycanda baş verənlər hakimiyyət davası deyil, Azərbaycan davası gedir. Yəni bu çalxalanmanın qızışdırılması fonunda Azərbaycanın itirilməsi davası gedir. Ona görə də məncə, müxalifətin maksimalist bir siyasi mübarizə metodundan çəkinməsini, iqtidarın da müxalifəti qəbuletməzlik sindromundan qurtarmasına ehtiyac var. Müxalifətə ən azı bir çərçivə verilməlidir ki, hansı platformada müxalifət hüquqi zəmində öz fəaliyyətini davam etdirə bilər. Heç olmasa, növbəti parlamentdə bunu inkişaf etdirmək lazımdır ki, bu cəmiyyət meydan eyforiyasından çıxsın, qaragüruhçu davranış stereotipindən uzaqlaşsın, daha soyuqqanlı bir parlament müzakirəsi mühitinə daxil ola bilsin. Bununla da barışmaz hesab etdiyiniz insanların da bir qismi parlamentdə öz fikirlərini səsləndirmək imkanına sahib olsunlar. Yəni cəmiyyəti daha çox bu istiqamətə yönləndirmək lazımdır ki, Azərbaycan təlatüm yaşamasın, Azərbaycanda meydan davasının nəticəsində biz Vətənin taleyini ilğıma sürükləməyək. Söhbət bundan gedir. Bunu edə bilsək, məncə, bu proseslərdən ağrısız çıxacağıq, Azərbaycanda aqressiya da yumşalacaq, vətəndaş barışı deyilən bir anlayış da hakim kəsiləcək.

***- Fazil bəy, parlamentin yaz sessiyasının ilk iclasında spiker Oqtay Əsədov plenar iclasın işində yarımçıq iştirak edən deputatlara ciddi xəbərdarlıq etdi. Necə bilirsiniz, bu xəbərdarlıq kimlərə ünvanlanmışdı, hansısa deputat mandatsız qala bilərmi?***

- Yox. Qanunvericilikdə deputatın mandatdan bu şəkildə məhrum edilməsi deyilən bir tələb yoxdur. Spikerin də iradı sırf texniki xarakter daşıyırdı ki, artıq deputatlar parlamentin iclaslarına daha məsuliyyətli yanaşsınlar. Hər dəfə belə iradlar səslənir. Bu, spikerin hüququdur və belə bir söz deməsi əsaslıdır. Amma bunun kimisə mandatdan məhrum etmək niyyətilə deyildiyini söyləmək olmaz. Çünki belə bir niyyət yoxdur və prosedur da bir az uzundur. Neçə iclasda iştirak etməmək, hansısa formada həqiqətən də parlamentin işinin pozulmasına gətirib çıxarması faktı varsa... Belə bir fakt yoxdur. Ona görə də bu, sadəcə texniki iraddır, məncə, bunun şişirdilməsinə ehtiyac qalmır. Bu, adi prosedur qaydada edilən iraddır.

***- Bu arada hələ də növbədənkənar parlament seçkilərinin keçiriləcəyi ətrafında şübhəli fikirlər var...***

- Bu da inandırıcı deyil. Açığı, kim ki parlamentdə olmaq istəyir, belə məlumatlar daha çox o çevrələr tərəfindən yayılır. Amma rəsmi şəkildə yoxdur və lüzum da yoxdur. Yəni indiki şəraitdə bir addım atılmasına zərurət yaranırsa, onda mümkündür. Yox, əgər yalnız bir texniki, seçkilərin üst-üstə düşmə vasitəsi kimi düşünülürsə, bu da artıq ortadan qaldırılıb. Çünki prezident seçkiləri 2025-ci ilin aprelində, parlament seçkiləri isə payızda keçiriləcək, bu da üst-üstə düşmə deyil. Hələ kifayət qədər müddət var. Ona görə də bu seçkinin keçirilməsi ilə bağlı heç bir arqument yoxdur. Amma çoxluq hansısa mülahizələrlə belə bir qərar qəbul edərsə, onda yəqin ki, məsələyə baxmaq olar.

***- Bu günlərdə YAP-dan olan deputatların baş nazirin müavini Əli Əhmədovla görüş keçirməsi də müəyyən uzaqgedən nəticələr çıxarılmasına rəvac verdi. Sizdə bununla bağlı hansı məlumat var?***

- Əslində ölkədə ciddi dəyişikliklər prosesi baş verir. Xüsusən ölkə prezidentinin başlatdığı yeni bir kurs ölkədə ciddi struktur və kadr islahatlarının anonsunu verib. Ona görə də artıq ləğv olunan, birləşdirilən qurumlar var. O baxımdan proseslərin onsuz da hansı məcraya getdiyi artıq bəllidir. Amma söhbət ondan gedir ki, YAP-ın bu məsələdə müəyyən passivliyini ortadan qaldırmaq üçün hərəkətə gətirmə məqsədilə belə bir addım atıldı. Bu da faydalıdır. Çünki prezidentin hər hansı addımının avanqardı ilk növbədə onun dəstəklədiyi, onun rəhbərlik etdiyi partiya olmalıdır. Amma biz çox vaxt görürük ki, bitərəflər daha çox bu dəstək kampaniyasında aktiv rol alırlar. Ona görə də bu passivliyi nəzərə alaraq belə bir tədbirin keçirilməsi məqsədəuyğun sayılıb.

***- Komitə sədri Siyavuş Novruzovun həmkarlarına çağırışı, yəqin, sizin də diqqətinizi çəkdi. Söyüş söyənlərin cavabını verməyə çağırdı, hamını mövqe bildirməyə dəvət etdi. Bu barədə nə deyə bilərsiniz?***

- Bu məzmunda çıxışlar tez-tez olur. Ümumiyyətlə, mənim fikrim odur ki, siyasətdə söyüşə söyüşlə cavab verilmir. Siyasətdə söyüşə cavab vermənin formaları var. Hüquqla, bir də fərqli mənəvi davranışlarla, alternativlərlə cavab verilir. Amma söyüş söyəndə cavab verən də birinci söyənin səviyyəsinə düşür. Ona görə də hamının kütləvi şəkildə kimisə söyməsinin yer aldığı bir Azərbaycan heç birimizə lazım deyil. Biz çalışmalıyıq ki, nə iqtidar tərəfdən, nə özünü müxalif adlandıranlar tərəfdən söyüş olmasın və mədəni üslub pozulmasın. Çox təəssüf ki, bu mədəni üslub pozulmasının simptomları daha çox görünür. Ona görə məncə, iqtidar tərəfdən bunu çox stimullaşdırmaq, buna həddən çox əhəmiyyət vermək lazım deyil. Belə qüvvələrlə hüquqi və ideoloji mübarizə aparılmalıdır. Sadəcə, son vaxtlar bu işi daha çox polisin, hüquq mühafizə orqanlarının üzərində atanda, hakimiyyətin arsenalı bu məsələdə ideoloji cəhətdən yetkinlik göstərə bilməyəndə çağırırlar ki, “gəlin, biz də söyək!” Niyə söyürsünüz? Əlinizdə televiziya var, qəzet var, mətbuat, maddi imkanlar var. Bu imkanlardan istifadə edin, intellektual insanları çevrənizə yığın və onları stimullaşdırın, bunlar səviyyəli, mədəni cavablarla, davranışlarla bunun zəiflədilməsinə, bu ənənənin ortadan qalxmasına köməklik göstərsinlər. Əsasən də bu yol seçilməlidir. Amma ölkədə hamı söyüşmü söyməlidir? Ölkənin hüquqi və ideoloji imkanlarını səfərbər edərək bu işin öhdəsindən gəlmək olar. Sadəcə, burada müəyyən qurumlar lazımi səviyyədə çalışsalar və pulu yeyib, başlarını girləməsələr, bu məsələnin öhdəsindən daha çox gəlmək mümkündür.

***- Adətən, bu kimi situasiyalarda, cəmiyyətdə barışmazlıq ab-havası yarananda ziyalılar meydana çıxır, tərəflərə xitab edir. Bu dəfə ziyalıların sükutu sizə nə deyir?***

- Ziyalılar əslində bu proseslərdə hər iki tərəfdən qorxurlar. Çünki iqtidar tərəfdən stimullaşdırılan ziyalıdan daha çox tərif eşidilir. Müəyyən dərəcədə də bəzən yaltaqlıq elementləri olur. Ziyalıların çoxu bu ampluada özünü görmək istəmir. Ona görə də hakimiyyətlə məsafə saxlayır. Müxalifət tərəfindən isə bir qaragüruhçu zehniyyətin müdafiəçisi kimi çıxış etmək tələbi qoyulur. Ziyalı qalır ikisinin arasında. Ona görə nəsə bir söz deməklə hansınınsa mövqeyinə yaxınlaşmağı özünə rəva görmür. Ziyalını burada günahlandırmaq olmur. Diqqət edirsinizsə, tanınmış bir ziyalı, yaxud başqası mütləq aqressiyanı səsləndirməklə “bəh-bəh” qazanmağa daha çox üstünlük verir. Eyni zamanda qaragüruhçu narazı adamdan fərqli, konstruktiv, ağıllı çıxış etmir, qaragüruhçunun xoşuna gəlmək istəyir. Bir qrup ziyalılar bunu edir. Ziyalılar onu edəndə hakimiyyətlə aralarında münasibət korlanır, hakimiyyət onları yaxına buraxmaq istəmir. Ziyalı elə etməlidir ki, hakimiyyətlə və müxalifətlə təqribən bərabər məsafədə olsun. Ziyalının əsas funksiyası obyektiv gerçəkləri dilə gətirməkdir, müəyyən dərəcədə cəmiyyətdə islahatlar yolu ilə islahatlar prosesinin irəliləməsinə nail olmağa çalışmaqdır. Ziyalı siyasətə həddən artıq bulaşmamalıdır, nə hakimiyyətin, nə müxalifətin yanında. Hər iki tərəfin tələbi fərqli olduğuna görə, özünə hörmət edən ziyalıların çoxu susqun mövqedə sözünün eşidiləcəyi zamanı gözləməklə məşğuldur.

***- Mətbuatla davamlı əməkdaşlıq edən millət vəkillərindənsiniz və yəqin ki, qəzetlərin üzləşdiyi problemlər sizi də narahat edir. Bəziləri qəzetlərin fəaliyyətini dayandırmasına “Düşdü bütün qəzetlər qiymətlər ay can-ay can” yanaşmasını sərgiləyir və yazılı mətbuatın önəmini nəzərə almır. Sizin mövqeyiniz necədir və mövcud situasiyada çıxış yolunu nədə görürsünüz?***

- Hər halda bizim ənənəni dağıtmaq olmaz. Azərbaycanda qəzet oxunması istiqamətində müəyyən addımların atılması vacibdir ki, çap mediası da sıradan çıxmasın. Amma çap mediası da artıq cəmiyyətdə çoxluqla yox, keyfiyyətlə özünə yer eləməlidir. Çünki bu gün internet tələbatı azaldıb, istəsən də, istəməsən də, bu, belədir. Qəzetlərə reklam imkanı vermək lazımdır. Necə ki, Türkiyədə, digər ölkələrdə qəzetlər həm də bir kommersiya quruluşu kimi fəaliyyət göstərib, çap mediası olaraq öz funksiyalarını qoruyub-saxlayırlar, həmin şeyi Azərbaycanda da etmək imkanı vermək lazımdır ki, qəzetlər məhv olmasın.

❑ **Elşad PAŞASOY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 26 (7196) 4 fevral 2019



# Kölgələr uzanır

Zamin HACI
zaminhaci@gmail.com

"- İndi danışaram! - kölgə dedi və oturdu. - Ancaq bir şərtlə, siz mənə söz verin, şəhərdə mənimlə harda qarşılaşsanız haçansa sizin kölgəniz olduğumu kimsəyə deməyəcəksiniz! Mən evlənməyə hazırlaşıram! Mənim imkanım var neçə ailə saxlayım!"

*(Hans Kristian Andersen, "Kölgə")*

*****

**Keçən həftə Mərkəzi Bankın müdiri Elman müəllim 200 manatlıq əskinasların dövriyyədə çox az olmasını... kölgə iqtisadiyyatı ilə bağladı. Deyir ölkəmizdəki kölgə iqtisadiyyatı bu banknotların dövriyyəyə çıxmasına imkan vermir. Sitat: "Daha dəqiq bilmək istəsəniz, nağd pul kütləsi "kölgə iqtisadiyyatı"nın əlindədir. Banklarda onu dəyişə bilmirlər, çünki bu gün banklarda ciddi qaydalar və normativ sənədlər var. Ona görə də 200 manatlıqlar biz düşündüyümüzdən az sürətlə dövriyyəyə daxil olur. Bu gün kölgə iqtisadiyyatı olmasaydı, iri nominallar 10 dəfə daha sürətlə dövriyyəyə daxil olardı". Sitatın sonu.**

Maraqlı açıqlamadır. Kölgə iqtisadiyyatının ölkədə böyük miqyasa malik olmasını dövlətin baş bankiri etiraf edirsə, biz nə deyə bilərik? Kölgə iqtisadiyyatı gizli, dövlətdən, rəsmi vergilərdən və sairədən örtülü bir ərazidir. Buna təkcə məişət səviyyəsində kölgə iqtisadiyyatı aid deyil. İri oliqarx-məmurların biznes şəbəkəsi daha böyük kölgəyə malikdir. Hər halda, Elman müəllim özü də etiraf edər ki, vergi ödəmədən taksi sürən xalturşik, yaxud, qonşunun cırıq ayaqqabısına qəpik-quruş əvəzində mıx vuran ayaqqabı ustası 200 manatlıq kimi iri əskinasların yiyələri deyildir.

O cümlədən, təzəlikcə "Beynəlxalq Şəffaflıq" qurumu Azərbaycanın korrupsiya indeksində geriləndiyini açıqladı. 2017-ci ilə nisbətən 30 pillə pisləşmə var, Azərbaycan dığırlanıb 180 ölkə arasında 152-ci yerə düşüb. Kamerun, Madaqaskar, Eritreya, Tacikistan kimi dövlətlərlə birgə. Təsəvvür edin, hətta Uqanda və Papua Yeni Qvineya bizdən qabaqdadır. Uqandanı bir qırağa qoyuram, dünənə qədər (bəzi xəbərlərə görə indi də) adam yeyən papuasların korrupsiya reytinqində bizi ötməsi qəlbimizi ağrıdır. Hökumət belə reytinqləri rədd edir, deyirlər islahat aparırıq, bunları görməlidirlər və sairə. Doğrudan da, ötəri baxışla Azərbaycanda korrupsiyanın ən azı məişət səviyyəsində xeyli azaldığını iddia etmək olar - ASAN xidmət, bir pəncərə və sairə. OVİR-dən başlayıb Slavyan və Xarici Dillər universitetlərinin ətrafına dolaşan, hətta bir ucu Qarabağ dərdimizə çatan pasport növbələri o qədər uzaq keçmiş deyil, yaxşı xatırlayırıq. O cümlədən, təzə vergi naziri Mikayıl müəllimlə köhnə nazir Fazil müəllimi eyni tərəziylə ölçmək insafsızlıq olardı (tərəzinin qırılma təhlükəsini demirəm). Mikayıl müəllim ən azı öz korrupsioner qohumlarını icra başçısı dürtüşdürmək "qanacağının" yiyəsi deyildir. Ancaq reytinq pisləşir. Bu yandan da Elman müəllim yaramıza duz səpir.

Yeri gəlmişkən, son illər bir çox iriçaplı korrupsionerlərə vurulan zərbələr, nazir-oliqarxların dağılan tifaqları diqqəti çəkir. Lakin bunun mənfi tərəfləri də var: daha suç keçisi tapmaq çətinləşir. Qabaq yol çökəndə bunu nəqliyyat nazirinin belinə şələləyirdik (həm də haqlı olaraq), indi nə edək? Yaxud, bahaçılıq və işsizliyi gömrükdə, istehsalatda səkkizayaq kimi hər şeyi qamarlamış inhisarçı nazirə bağlamaq olurdu. Naziri vurmuşuq, gömrükdən qanunsuz milçək də keçmir, iş yerləri isə milyon dənə açılıb. Bəs problemlər niyə qalır? Deməli ətrafdakı bütün hədəfləri sıradan çıxartmaq bəlkə də strateji baxımdan doğru yol deyildir. Dindarların bu temada yaxşı məsəli var, deyir təklik Allaha yaraşır.

Ola bilər ki, həmin vurulanlar, o cümlədən kölgə iqtisadiyyatı hətta gizli-aşkar qarşı cəbhəyə də keçsin. Misal üçün, birdən baxırsan stadion dolub...

Kölgə işi ciddi işdir. Uqandalılardan soruşun, desinlər.




# Fiasko olan xarici səfərlər, Paşinyana Qarabağ "dərsi"

## Erməni baş nazirin "iki stul" siyasəti, sülhlə bağlı ziddiyyətli mövqeyi və söz oyunu işğalçı ölkəyə Qərbin sərmayələrini yox, yeni təlatümlər vəd edir; **politoloq: "O, öz inqilabının qurbanına çevrilə bilər..."**

**Ötən həftəsonu Ermənistanın baş naziri Nikol Paşinyan Almaniyaya səfər edib. Qərbyönlü erməni KİV-lərin bu səfərin əhəmiyyətini şişirtməsinə və ona məxsusi rəng verməsinə rəğmən, fakt budur ki, Nikol dünyanın üçüncü iqtisadi nəhəngi sayılan bu Avropa ölkəsindən də əliboş qayıdası olub.**

Bəlli ki, Ermənistan rəhbərinin əsas hədəfi bacardıqca işğalçı ölkəyə Qərb sərmayəsini və iş adamlarını cəlb eləmək, çoxlu iş yerləri açmaq, əhalinin güzəranını yaxşılaşdırmaq və nəticə etibarilə ölkədən böyük köçü səngitməkdir. Yəni Dağlıq Qarabağ problemi, erməni təcavüzü faktı sanki yoxmuş kimi, Avropa Birliyi və ABŞ üçün Ermənistanın investisiya cəlbediciliyinə nail olmaqdır.

Lakin Paşinyan 9 aydır bu yöndə ciddi nəticəyə nail ola bilmir. Hətta heç Qərbdəki varlı erməni iş adamları da buna həvəs göstərmirlər. Onların da, Qərbin də Paşinyan iqtidarı qarşısında tək şərti Ermənistanın Rusiyanın təsir dairəsindən uzaqlaşmasıdır. Bu isə Qarabağ məsələsində müsbətə doğru real dönüş olmadan, iki əsas qonşu - Azərbaycan və Türkiyə ilə Ermənistan dil tapmadan mümkünsüzdür.

*****

ABŞ, Avropa rəsmiləri bu şərti artıq açıq şəkildə bəyan eləməyə başlayıblar. Prezident Donald Trampın Nikol Paşinyana təbrik məktubunda da bu tezis "qırmızı xətt" kimi keçib. Paşinyan isə Rusiyaya sədaqət andı içməkdə, paralel surətdə Qərbi maliyyə köməyi göstərməməkdə qınamaqdadır.

"Ermənistan alman kapitalının cəlb edilməsi ilə bir sıra proqramlar həyata keçirilməkdədir. Biz ümid edirik ki, Ermənistana Almaniya sərmayələrinin həcmi mütləq artacaq". "Yeni Müsavat"ın məlumatına görə, bunu Paşinyan Almaniya kansleri Angela Merkellə Berlində keçirilən mətbuat konfransında deyib. Məlumatlara görə, görüş zamanı tərəflər regional və beynəlxalq gündəliyin əsas mövzularına, o cümlədən Qarabağ məsələsinə də toxunublar.

Lakin Merkel "demokratik Ermənistan"a böyük alman sərmayələri ilə bağlı Paşinyana heç bir vəd verməyib. Məsələ də ondadır ki, Qarabağ, işğal problemləri aradan qalxmayınca Ermənistanın Qərbə yolu bağlı qalacaq. Paşinyan üçün Almaniya səfərinin əsas dərsi budur. Kansler Merkel bir daha Dağlıq Qarabağ məsələsini "açar problem" kimi onun diqqətinə çatdırıb. O da aydındır ki, Rusiyanın qapazaltısı olan, əsas qonşuları ilə sərhədləri bağlı və dünya okeanına çıxışdan məhrum Ermənistana heç bir aparıcı Avropa ölkəsi, ABŞ böyük yatırımlar qoymayacaq.

Xatırladaq ki, Almaniyadan az əvvəl Paşinyan Rusiyada səfərdə olmuşdu. Lakin prezident Vladimir Putin onu qəbul eləməmişdi. Kremlin ondan narazılığının motivi məlumdur. Rusiya lideri Ermənistanın yeni qərbpərəst rəhbərliyinə, "iki stul" siyasəti aparan Nikol Paşinyana ürək qızdırmır, inanmır. Hərçənd Kreml başçısı onunla işləmək zorundadır.

Moskva indi əlindəki ən müxtəlif rıçaqlar (Ermənistana satılan təbii qazın qiyməti və Rusiyadakı erməni əmək miqrantları məsələsi manipulyasiya, Moskvaya sadiq Qarabağ klanından təzyiq kimi istifadə və s.), habelə şirnikləndirici üsullarla (yeni silah vədi), qısası, "qamçı və kökə" taktikası hesabına Paşinyanın cilovunu əlinə yığmağa çalışır. Lakin müşahidələr göstərir ki, Moskva hələ ki Paşinyanla bağlı son sözünü deməyib. Yəqin ki, qarşıdakı aylar bu xüsusda kulminasiya dövrü kimi yadda qalacaq.

*****

Ermənistan baş naziri bu ay İrana da səfərə gedəcək. Bu barədə Paşinyanın özü Almaniyadakı erməni icması ilə görüşündə bildirib. İran bu ilk səfər fevralın 27-ə nəzərdə tutulur və təbii ki, ABŞ-ı qızdıracaq.

Onsuz da blokada şəraitində olan kasıb Ermənistan İran üçün iqtisadi-ticari baxımdan elə mühüm önəm daşımır. Bu və digər səbəbdən həmin səfərin də Ermənistan üçün pozitiv nəticələr və perspektiv baxımdan fiasko olacağı şübhə doğurmur. Onu da unutmaq olmaz ki, Rusiya və İranı ABŞ-a münasibətdə nə qədər ortaq maraq birləşdirsə də, onlar regional rəqiblərdir. Bundan başqa, İran qazı Rusiya qazına real alternativ qismindədir.

Əlbəttə, Paşinan çox istərdi ki, işğal problemi, Qarabağ məsələsi çözülmədən Ermənistanın Türkiyə ilə də rəsmi əlaqələri olsun, sərhədlər açılsın və hətta o, qardaş ölkəyə də səfər eləsin. Ancaq rəsmi Ankara artıq onun cavablını verib: öncə Azərbaycan torpaqlarını boşalt!

*****

"Əslində Paşinyan üçün iki seçim var: ya təcrid siyasəti davam etdiriləcək və növbəti dəfə o, özü inqilabların qurbanı olacaq. Ya da münaqişənin həlli istiqamətində konkret addımlar atacaq". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri axar.az-a açıqlamasında analitik Elçin Mirzəbəyli deyib.

Politoloq hesab edir ki, Paşinyan hazırda ciddi təzyiq altındadır. "Bu, açıq-aşkar görünür. Əvvəla, ölkə daxilindəki Qarabağ klanı istənilən açıqlamadan istifadə edərək, ona qarşı ittihamlar səsləndirir. İkincisi, bütövlükdə Ermənistan cəmiyyətinin sosial-iqtisadi durumu elə vəziyyətdədir ki, istənilən hadisə ilə bağlı qığılcım növbəti kataklizmlərin baş verməsinə gətirib çıxara bilər. Önəmli faktorlardan biri isə Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsi və bütövlükdə Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinin qlobal müstəvidə əsas şərtlərdən biri kimi ortaya qoyulmasıdır. Yəni Paşinyan istəsə də, danışıqlar prosesindən geri qaça bilməz. Paşinyanın beynəlxalq müstəvidə inteqrasiya və ölkəyə investisiya cəlb etməsinin yolu da məhz onun Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı nümayiş etdirəcəyi mövqedən asılıdır", - deyə təhlilçi qeyd edib.

Onun sözlərinə görə, əgər Ermənistan Dağlıq Qarabağ məsələsində konstruktiv mövqe tutarsa, o zaman Ermənistana müəyyən investisiyaların cəlb edilməsi mümkün olacaq: "Eyni yanaşma ATƏT-in həmsədri olan ölkələr tərəfindən ortaya qoyulub. ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Azərbaycan prezidentinə telefonla zəngində də biz prioritet istiqamət kimi təhlükəsizlik məsələləri kontekstində Qarabağ konfliktinin həllinin ortada mübakirə mövzusu olduğunun şahidi olduq. Eləcə də ötən il Donald Trampın İlham Əliyevə ünvanladığı məktubların ikisində də Qarabağ münaqişəsinin həlli ilə bağlı yaxın zamanlarda ciddi prioritetlərin açılacağının vurğulanması əslində prosesin öncədən elan olunduğunu ortaya qoyur".

Analitikin qənaətincə, Qarabağ ixtilafının həlli hazırda Ermənistan üçün ölüm-dirim məsələsidir. "Çünki əvvəllər bu məsələ Ermənistanın qarşısında yalnız Azərbaycan və Azərbaycanla müttəfiq ölkələr kontekstində qoyulurdusa, indi artıq beynəlxalq müstəvidə Ermənistandan tələb olunur. Şübhəsiz ki, Paşinyan konfliktin həllinə cəhd göstərməzsə, o zaman müharibənin başlama ehtimalı çox böyükdür. Əgər müharibə başlayacaqsa, Azərbaycan öz hüquqlarından istifadə edərək, ərazilərinin bərpası istiqamətində addım atacaqsa, bu, qısa müddətdə həm də Paşinyanın siyasi hakimiyyətdən getməsinə səbəb olacaq. Yəni bu gün bölgədəki regional və qlobal proseslər Ermənistanın əleyhinədir. Bu baxımdan ənənəvi qaydada Paşinyan Ermənistanda bir bəyanat, başqa bir ölkədə başqa bəyanatlar səsləndirir. O, bununla diqqəti əslində danışıqlar prosesinin mahiyyətindən yayındırmağa çalışır", - deyə politoloq əlavə edib.

*****

Ancaq İrəvanın "iki stul" siyasəti, habelə sülhlə bağlı, Qarabağla bağlı söz oyunu uzun sürə bilməz. Çünki hazırkı qeyri-müəyyənliyin bitməsini hər şeydən öncə mövcud şərtlər, həmçinin Ermənistanın davam edən ağır sosial-iqtisadi durumu və bir də Paşinyanın öz xalqına verdiyi vədlər diktə edir...

❑ "Yeni Müsavat"ın analitik xidməti

YENİ MÜSAVAT
N 26 (7196) 4 fevral 2019

# YAP "ortada yeyib qıraqda gəzən" deputatlarını fəallaşdırmağa başlayır

## Zahid Oruc: "Bunu başqaları edəcək, mən bir qədər kənarda qalım" fəlsəfəsi ilə hərəkət etmək olmaz"

**Ötən həftənin siyasi hadisələri içərisində diqqətçəkənlərdən biri hakim Yeni Azərbaycan Partiyasının rəhbərliyinin partiyanın Milli Məclisdəki deputat korpusu ilə xüsusi toplantı keçirməsi oldu. Son zamanlar baş verən siyasi canlanmanın, hakimiyyət üzərinə daxildən və xaricdən həmlələrin artdığı bir vaxtda hakim partiyanın 70-ə yaxın deputatının 5-6 nəfəri çıxmaqla, passivlik nümayiş etdirməsi tənqid olunmaqdaydı.**

YAP rəhbərliyinin deputatları toplaması və onlara aktivləşmək, seçicilərlə sıx işləmək kimi tapşırıqlar verməsi iqtidarın da öz deputatlarının çoxusundan razı olmadığının göstəricisi kimi şərh edilir. Eyni zamanda, siyasi şərhçilərin qənaətincə iqtidar indiyə qədər "ortada yeyib qıraqda gəzən" deputatlarını da işlətmək, onları da "çiyinlərini yükün altına verməyə" sövq etmək qərarındadır. Keçirilən görüş də bu məqsədə xidmət edir.

Deputatların və məmurların hərə öz sahəsində aktivləşməsinin vacibliyini vaxtaşırı gündəmə gətirən və təkliflərlə çıxış edən millət vəkili Zahid Oruc bu barədə "Yeni Müsavat"a açıqlamasında dedi ki, siyasi sistemi təşkil edən hər kəsin, qüvvələrin, həmçinin Məclis üzvlərinin, hökumət strukturlarının üzərinə böyük iş düşür: "Ölkə rəhbrinin apardığı syasətin mahiyyətini vətəndaşlara izah etmək, onu müdafiə eləmək eləcə də polemika şəraitində onunla razılaşmayanlarla işləyib onlara da mahiyyəti çatdırmaq işi gücləndirilməlidir. Bu təqdir olunacaq bir hadisədir. Xalq hansısa bir islahatlar prosesi, hansısa bir proqramının reallaşmasında iştiralk edəcəyi halda bu proqramlar təsirli olur və nəticə verir. Əks halda onu millətdən kənarda gerçəkləşdirə bilməzsən. Bu istiqamətdə məsuliyyət hakimiyyət partiyasının üzərində daha artıq dərəcədə olur və hakim partiyadan bu işdə daha artıq daha çox gözləntilər olur. Çünki iqtidarı onlar təşkil edir, əsas qərarlar məhz onların hökumətindən verilir. Bu gün keçmiş postsovet məkanı və Şərqi Avropa dövlətləri sırasında İlham Əliyev qədər güclü lider, ideoloji siyasi məkana ən yaxşı ideyaları çıxaran, regional təhlükəsizlik arxitekturasını quran, transmilli layihələr gerçəkllşdirən lider demək olar ki yoxdur və yaxud da çox azdır. Belə bir çərçivədə o qüvvələrin üzərinə 1990-cı illərdən fərqli olaraq daha ağır və daha çətin vəzifələr qoyulmur. Lakin biz xatırlaya bilirik ki, Heydər Əliyevin dövründə bəzən hər bir bölgədə qeyri-sabitliyə qarşı bir tərəfdən direniş göstərmək tələb olunurdu, bəzən lokal ərazilərdə toqquşmalar, hətta silahlı dəstələrlə əlbəyaxa savaşa çıxmaq gərək olurdu. İndi bütün bunlar ortada yoxdur. İndi daha sabit bir məkanda intellektual, siyasi, ədəbi publisistik elmi mübarizələr tələb olunur. Komandadan, o cümlədən hakim partiyanın deputatlarından tələb olunan budur. Bütün bu məsələlər zəruri edir ki, komandanın hər bir üzvü öz sahəsində üzərinə düşən vəzifəni yerinə yetirsin. Şəhid ailələri ilə bağlı dövlət başçısının bu qədər mühüm xarakter daşıyan fərmanı verilmişdi. Bu işin istər virtual məkanda, istərsə də cəmiyyətdə, televiziyalarda, mediada yaxşı təqdimatı istənilirdi. Elə bir şəkildəki bu bir tərəfdən keçmişdə mübarizə aparan insanlara dəyər vermək anlamına gəlsin, eyni zamanda, ölkənin ərazi bütövlüyü uğrunda mübarizəyə insanları ruhlandırsın. Amma nə baş verdi? Kiçik bir narazı insanlar haqlı olaraq öz etirazlarını dilə gətirdilər və müxtəlif hökumət orqanları qarşısında tələblərini irəli sürdülər. Amma həmin hökumət orqanlarında sanki onların səsi eşidilməz oldu. Yalnız yenə də ölkə başçısının hər zamankı mənəvi siyasi böyüklüyü nümayiş olundu və şəhid ailələri ilə Prezident Administrasiyasında keçirilən görüş sübut elədi ki, bu dövlət və bu torpaq uğrunda mübarizə aparanlar dövlətin məhəng daşlarıdırlar və Prezident onlara qurduqları o dövlət binasında da yer verir, dəyər verir. Bax bu kimi məsələlərin mahiyyətini insanlara çatdırmaq həm də hakim partiyanın deputatlarının, üzvlərinin işidir. İnformasiya məkanında, sosial şəbəkələrdə daha çox narazıların mövqeyini işıqlandırmaq istiqamətində işlər var. Bunun fəsadlar törətdiyini görməkdəyik. Əgər sən buna intellektual qarşılıq vermirsənsə, dayandığın cinahın mövqelərinin zəifləməsi baş verir".

Deputatın sözlərinə görə, mübarizə fəlsəfəsi hamıdan onu tələb edir ki, bu gün istər mandat daşıyıcıları, istər digər sahələrdə olanlar dərk eləsinlər ki, arxayınlıq, "bunu başqaları edəcəkdir, mən bir qədər kənarda qalım" fəlsəfi nəzəriyyəsi ilə hərəkət etmək olmaz: "Hərə dayandığı nöqtədə dövlət ideallarına xidmət etsin, bu kifayətdir. Baxın, yüz il bundan əvvəlin cümhuriyyət qurucuları barmaqla sayıla biləcək qədər adamlar idi, amma onların nə qədər böyük mirası qalıb. İndikindən qat-qat kasıb idilər, bu qədər kommunikasiya vasitələri yox idi, ev villa, şərait, ən yaxşı marka maşınları mövcud deyildi, lakin onlar mümkün olanından da artığını dövlət və xalq üçün edirdilər. Bu gün Azərbaycanın prezidenti də dövlət və xalq üçün bütün gücü ilə çalışır. Prezident ortaya nümunə qoyur. Hər kəsin də üzərinə bütün gücü ilə çalışmaq düşür. Yüz il bundan qabakı ilə müqayisədə fəaliyyət üçün daha yaxşı imkanlar varsa nədən bunlar hər bir millət vəkilinin, məmurun işində özünü göstərməməlidir?! Söhbət gündəlik Milli Məclis məkanında düyməni basıb çıxış etməkdən, qanun layihəsi işləyib hazırlayıb gətirməkdən getmir. Fəaliyyətin bundan başqa çox rəngarəng formaları var. Hesab edirəm ki, millət vəkillərinin sırasında əhali ilə aktiv işləyən, onların problemlərini həll eləyənləri də az deyil. Amma bu hamını əhatə etməli və götürülən işlər o qədər sistemli xarakter daşımalıdır ki, hər kəs razı qalsın. Ağıllı sağlam ideyalar meydanda görünməyəndə mütləq ekstremizm, talibançılıq təfəkkürü meydan sulayır. Biz bunu müxtəlif ölkələrin həyatında görmüşük. Azərbaycanda meydanı sağlam ideyalarla zənginləşdirmək hər bir deputatın, məmurun əsas vəzifələrindən biri olmalıdır. Hər birimizdən istənilən budur".



❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

---

# Qəzetlərə "'olma" deyən Odur! Bəs biz nə edək...



**Rauf ARİFOĞLU**

## Doğmalarımızdan çox baxdığımız telefon ekranı və doğma qəzetlər - çap mediasını dirçəltmə təşəbbüsündə kimlər var...

**Bir məruzətim var, dostlar. Hövsələsi olanlar, bu yazımı sona qədər oxusunlar.**

Qəzetlərlə bağlı yeni şərait və yeni şərtlər ortaya çıxıb.

KİV DF -nin 2019-cu ilin II rübü üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı yeni müsabiqə şərtlərini deyirəm.

30 yaşlı "'Yeni Müsavat" olaraq bu şərtlərə tam cavab veririk və bizim davamiyyətlə bağlı heç bir problemimiz yoxdur. Son 30 ildə ən azı, 30 çətinlik-problem dəf etmişik.

Lakin bu, bizim və ümumilikdə çap mediası üçün problem də deyil. Bir şansdır.

Azərbaycan prezidenti İlham Əliyev illərdir dövlət büdcəsindən ciddi maliyyə dəstəyi verir ki, çap mediası yaşasın.

İndi onun təşəbbüsü ilə yeni mərhələ başlayır. Mahiyyətini özümün anladığım şəkildə belə özətləyirəm: qəzetlər azalacaq, lakin dəstək artacaq. Tələblərə cavab verən qəzetlərə daha yüksək maliyyə ayrılacaq. Hədəf - Azərbaycanın dünya standartlarına yaxınlaşan print mediası formalaşsın. Məndəki qənaət və məlumat həm də budur: mövzular və tənqid-təftiş məhdudiyyətləri əhəmiyyətli dərəcədə qaldırılacaq, satış nöqtələri (xüsusi ilə metrostansiyalardakılar) bərpa olunacaq, yayım və çap sistemi təkmilləşdiriləcək!

Yəni prezidentin və onun çap mediası üçün qurduğu KİV DF-nin məqsədi qəzetlərə yardımı daha effektli, daha strateji və daha məqsədəuyğun hala salmaqdır. Yeni konsepsiyanın mahiyyəti, məncə, budur. Dəstəkləyirəm. Nəticələr üçün bir menecer olaraq, əlimdən gələni edəcəm.

Lakin bir nüans var. Dünyada və ölkədə çap mediasını, qəzetləri keçmiş mərhələ sayan zehniyyət və qənaət getdikcə güclənir. Bu, ciddi təhdiddi. Oxucu təhdidi - oxunmama təhdidi. Qəzetlərə "'olma"' deyən də, "'ol"' deyən də Odur. Oxucu!

Milyonlarla insan sosial mediaya keçib, məlumatı da həyatı da orada tapır.

Onu da qəbul edirəm - nyu-medianın çap mediasını üstələməsi dünya çapında bir faktdır.

Hətta belə görünür ki, oxucu haqlıdır -print media onun istəyini qarşılaya bilmir. Əsrimiz paralel ekran əsridir. Əlimizdə və ya cibimizdə daşıdığımız telefonun ekranına ən yaxın doğmalarımızdan da daha çox baxırıq, daha çox ilgilənirik. Gecə yatanda ən son gördüyümüz, sabah yuxudan oyananda ilk baxdığımız telefon ekranı olur... Belə bir dünyada kağız informasiya vasitəsi "'demode" görünür, lazımsız təsir bağışlayır.

Lakin hər kəs üçünmü belədir? Ən əsası, bu gedişat düzgündürmü? Paralel ekran insanlığı haralara aparır? Qəzetlərin dövrü bitdimi? Bitirəkmi? Bitəcəkmi? Yoxsa bizlərdən də asılı nəsə var; qəzetçilər və qəzetsevənlər nələrsə edə bilərlər. Nələr?

Prezidentin və onun çap mediası üçün qurduğu Fondun "yenidən qəzet və yenilənmiş qəzet - Azərbaycanda da rəngli, çox səhifəli, çeşidli mövzularda və maraqlı yazılarla çıxan qəzetlər olsun"' çağırışları, təşəbbüsləri əminəm ki, doğrudur. Bəs bu fikirdə olan və bu təşəbbüsləri dəstəkləyən daha kimlər var? Qəzet sənayesindəki tanınmış menecerlərə, o cümlədən şəxsən mənə dəstək olacaq dostlar nə düşünür və nə ilə dəstək ola bilərlər? Mənim abunə çağırışım kimlərisə təsirləndiribmi?

Bütün bu və digər sualları, mövzuları müzakirə etmək və qəzetlərin formatlanmasında iştirak etmək fürsəti yaranıb.

Qəzetimizin dostlarının təklifi ilə fevralın 4-də, saat 12-14 arasında redaksiyamızda bu mövzularda müzakirə açırıq. Eyni zamanda, mənim abunə çağırışıma müsbət cavab verən dostların təklifi ilə abunə marafonu başladırıq. Yuxarıdakı suallara tərəddüdsüz "'qəzetlər olmalıdır, qəzet oxumağı da, oxutmağı da sevirik. Yenidən doğuş və yenilənmə sürəcinə ümid bəsləyirik"', deyənlər "'Yeni Müsavat"'ın redaksiyasına gələcəklər. Onların arasında yeni medianın aktiv və alovlu dəstəkçiləri - qəzetlərin lazımsızlığına inananlar da var. Bunun üçün də müzakirələrin gərgin və maraqlı olacağı görünür. Lakin əminəm ki, faydası da olacaq.

Artıq 6-sı millət vəkili olmaqla, iş adamlarından, yazıçı və tanınmış jurnalistlərdən, ictimai sektorun görkəmli xadimlərindən, media kapitanlarından ibarət 30 nəfərlik heyət bu çağırışa reaksiya verib.

Beləliklə, həftənin 1-ci günü (4 fevral) saat 12-14 arasında ölkədə özü və imzası tanınan, 144 illik qəzet tarixmizin davam etməsini vacib sayan və qəzetlərin daha geniş oxucu kütləsinə yayılmasını istəyən dostlarımız "Yeni Müsavat"ın redaksiyasında görüşəcəklər.

Çaylar və reportaj bizdən...

YENİ MÜSAVAT
N 26 (7196) 4 fevral 2019



# Qeqamın dul qalmış Anuşu və...

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Erməni saytlarında bir yazı oxudum. Söhbət aprel müharibəsində Azərbaycan əsgəri tərəfindən məhv edilən müqaviləli hərbçi Qeqam Krtçyanın dul qadınından gedir. Düşmən ölkənin mediası Anuş Yusnuntsun orduya getdiyini yazıb.**

Demə, özü də Xankəndindəki hərbi hissələrin birində xidmət keçən bu Anuş elə xidmət zamanı Qeqamla tanış olubmuş. Əri öləndən 4 ay sonra bir qız doğan qadın uzun müddət sarsıntıdan özünə gələ bilmədiyi üçün orduya qayıtması üçün bu vaxtacan gözləməli olub. Azərbaycanın işğal altındakı ərazilərində xidmət edən həmin bu Qeqam ölümündən 6 ay əvvəl Anuşla evlənibmiş. Heç uşağının olacağını da bilməyib öləndəE

Əslində insani tərəfdən baxanda çox ağır hadisədir. Belə olmamalıydı.

Amma bu vəziyyəti kim yaradıb? Təbii ki, ermənilər və onlardan maşa kimi istifadə edənlər. İndi bu erməni axçisi türklərə qarşı intiqam hissi ilə alışıb-yanır və orduya qayıtmaqda məqsədi həm də fürsət düşəndə bizdən qisas almaqdır. Amma anlamır ki, onun cəmi yarım il bir yerdə olduğu ərinin qatilləri sərkisyanlar, köçəryanlar, saakyanlardır.

Ermənistanın Avropa Şurası Parlament Assambleyasında bir "dişi canavar"ı var - Naira Zohrabyan. Elə bu günlərdə Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov onun ünvanına replika səsləndirərək "Naira Zohrabyan gözəlləşdikcə xarakteri daha da dözülməz olur", deməklə bu ifritəsifəti yerdən-yerə vurmuşdu. Demək, həmin bu "Çiçəklənən Ermənistan" fraksiyasının deputatı olan Zohrabyan deyib ki, sülh qarşılığında ərazilərin qaytarılması Qarabağ münaqişəsinin həll formulu deyil. Bax, Nairanın "gözəlliyi" bu cür yanaşmasındadır. Ermənilər onu türk qanını içməyə hazır olduğu üçün qiymətləndirirlər.

Ötən ilin oktyabrında Ermənistan baş naziri Nikol Paşinyanın arvadı Anna Akopyan "Qadınlar sülh naminə" humanitar aksiyası təşkil etmişdi, bir dəstə rusiyalı qadını toplayıb Qarabağa gətirmişdi və təmas xəttinin o tərəfindən "sülh çağırışları" etmişdi. Ancaq ondan kimsə soruşmadı ki, sülh istəyən bir ölkənin ərazisinə icazəsiz getməz, çağırışını edər və sözünə sadiq qalar. Amma həmin bu Anna oğlunu hərbi xidmətə Qarabağa göndərir, "get, türk öldür" öyüdünü verir, sonra da sülh nağılı danışır.

Yuxarıda sadaladığım faktlar hələ qadınlarla bağlıdır. Adətən, qadınlar sülh tərəfdarları olurlar, istəyirlər ki, günahsız övladları, yaxınları müharibənin qurbanı olmasınlar, qan tökülməsin. Amma bunlar qana çağırırlar. Görün, belə vəziyyətdə erməni daşnakları, "Yerkrapa" adlı canilərdən ibarət təşkilatın nümayəndələri, "Qarabağ klanı"nın üzvləri, nəhayət, erməni diasporunun nümayəndələri hansı düşüncənin sahibləridir. Hələ biz Eçmiədzindəki keşiş libasına girmiş şeytanlardan danışmırıq. İkinci Qaregin Naxçıvanla sərhəd bölgəsinə gedib Azərbaycan əsgərini öldürməyə çağırış edirsə, erməni keşişlər Qarabağ torpaqlarının işğal günlərində keçi kimi qabağa düşüb işğalçıların qarşısında addımlayırsa, başqalarından nələr gözləyəsən?

Azərbaycan və Ermənistanın xarici işlər nazirləri yanvar ayında Parisdə görüşdü və xalqların sülhə hazırlanması prosesi ilə bağlı razılıq əldə etdilər. Bunun ardınca Azərbaycan prezidenti və Ermənistanın baş naziri Davos forumu çərçivəsində bir araya gəldilər. Lakin nə Parisdəki 4 saatlıq, nə də Davosdakı 1,5 saatlıq görüşün müsbət nəticələrini görmürük - baxmayaraq ki, indi də həmsədrlər XİN rəhbərlərini Münhendə bir araya gətirmək istəyirlər. Amma nə dəyişəcək ki?

Nikol Paşinyan elə bu günlərdə Almaniyanın Köln şəhərindəki erməni icması ilə görüşdə bütün ümidlərin üstündən xətt çəkdi. Sitat: "Niyə hamı bizdən güzəştlərə hazırsınız, ya yox deyə soruşur? Niyə kimsə Azərbaycandan soruşmur, onlar güzəştə hazırdırlar, ya yox?"

Əslində bu, Ermənistanla danışıqlara "STOP" qoymaq üçün kifayət edən mövqedir. Ermənistanın hökumət başçısı 20 faiz torpağını işğalda saxlayan Azərbaycandan hələ bir güzəşt də gözləyir. Düzdür, Azərbaycan XİN-in mətbuat xidməti Paşinyana cavab verib. Amma artıq bəyanat döyüşü geridə qalmış sayılmalıdır. Bundan sonra Köldə birgə foto çəkdirməyin də yeri yoxdur. Aprel döyüşündə gəbərdilmiş erməninin arvadı belə, "daha bəsdir, mən istəyirəm uşağım salamat böyüsün" demək əvəzinə, işğalın davamı üçün orduya qayıdırsa, deməli, vaxt itirməyin mənası qalmır.

Əcnəbi jurnalistin Şuşada çəkdiyi fotolara baxdınızmı?! Qapılar hələ də qıfıllıdır...

**Son günlər Bakıda məşhur "Lady Sharm" mağazalar şəbəkəsinin bağlanması haqda məlumatlar yayılıb. Bildirilir ki, şəbəkənin bir qrup məsul şəxsi hüquq-mühafizə orqanları tərəfindən həbs edilib.**

# "Lady Sharm"ın sahibləri xaricdən qayıtmaq istəmirlər - saxta mallar satılması məsələsi böyüyür

## Məşhur brendlərin saxta çeşidləri Bakıda və xaricdəki sexlərdə hazırlanıb, nüfuzlu müştərilər aldadılıblar







Həbsə səbəb mağazalar şəbəkəsinin bazara məşhur brendlərin saxtalaşdırılmış çeşidlərini çıxarmasıdır. "Yeni Müsavat"a daxil olan xəbərdə deyilir ki, məşhur brendlərin saxta çeşidləri Bakıda və xaricdəki sexlərdə hazırlanıb. Bu haqda hüquq mühafizə orqanlarına məlumat daxil olandan sonra "Lady Sharm" mağazalar şəbəkəsinin ayrı-ayrı ticarət nöqtələrində əməliyyatlar keçirilib, məşhur brendlərin saxtalaşdırılmış çeşidləri maddi sübut kimi yük maşınları ilə xüsusi anbara daşınıb.

Yerli saytların yazdığına görə "Lady Sharm" mağazalar şəbəkəsinin sahibləri xaricdə olduqlarından əməliyyat zamanı həbsdən yayına biliblər. Amma onların Bakıdakı işçilərindən xeylisi həbs edilib. Hazırda "Lady Sharm"ın rəhbərləri bütün saytlarla əlaqə qurub, barələrində yayılan xəbərləri sildirmək istəyirlər. Buna müəyyən qədər nail də olublar. Deyilənə görə, şəbəkənin əsas sahibi regional TV-lərdən birinin sahibinin kürəkənidir. Buna görə də bəzi saytlara nüfuz edə bilirlər.

"Yeni Müsavat"a daxil olan məlumata görə, şəbəkənin rəhbər şəxsləri yaxın çevrələrinə bildiriblər ki, Azərbaycana gələ bilməyəcəkləri təqdirdə, Avropa ölkələrindən siyasi sığınacaq istəmək fikrinə düşə bilərlər. İddialara görə, hətta bunun üçün bəzi müxalifət partiyalarının rəhbərlərindən böyük məbləğ müqabilində arayış almaq variantı da gözdən keçirilir.

Şəbəkənin rəhbərliyinin qəzəbə gəlməsinin səbəbi kimi nüfuzlu şəxslərin aldadılması olub. Bildirilir ki, "Lady Sharm" mağazalarından alver edən məşhurların arasında çox nüfuzlu şəxslər də olub, onların aldadılması prosesin bu həddə çatmasına gətirib çıxarıb.

Özünü şirkətin rəhbəri kimi təqdim edən Aybəniz adlı xanım saytlara açıqlamasında xəbəri təsdiqləyib: "Pul mənimdir, amma heç bir sənəddə adım, imzam keçmir. İl yarım əvvəl məndə xərçəng xəstəliyi aşkarlandı, işçilərlə əlaqə saxladım və dedim ki, ölsəm pulum sizə halaldır, ölməyib qalsam gəlib haqq-hesabımızı çəkəcəyəm, işimiz davam edəcək. Onlar da gedib bu cür davam ediblər. Onlara dedim ki, mənim adım olan yerdə gərək belə etməyəydiniz. Türkiyədə bu, pis iş deyil, amma Azərbaycanda maddə veriblər. Bu, ticarətdir, vəzifə deyil. Onsuz da bundan sonra şöbələrin hamısını bağlayacam, bircə şöbə fəaliyyət göstərəcək".

Saytlar yazır ki, əslində mağazalar şəbəkəsinin əsl sahibi başqa şəxsdir, güclü cinsin nümayəndəsidir. Bu barədə məlumat verən mənbənin sözlərinə görə, Aybəniz xanım, sadəcə, işlərin başında dayanan şəxsdir.

"Yeni Müsavat" əməkdaşı dəqiqləşdirib ki, "Lady Sharm" mağazalar şəbəkəsinin Bakıda ümumilikdə 16 ticarət nöqtəsi var, həmin nöqtələrdən biri "Gənclik Mall"da, digəri isə "28 May Mall"da yerləşir.

"Lady Sharm" mağazalar şəbəkəsinin "Neftçilər" metro stansiyasının yaxınlığındakı mağazası da hazırda bağlıdır. Yaxınlıqdakı mağazaların satıcıları deyiblər ki, buradakı "Lady Sharm" bir neçə gün əvvəl bağlanıb və nə vaxt açılacağı da bilinmir.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# "Ağır xəsarət almışam, deyilənləri başa düşmürəm"

## Ölümlə nəticələnən avtoqəza ilə bağlı məhkəmədən qeydlər

**Ölümlə nəticələnən qəzanı törədən sürücü hakim qarşısına çıxarılıb. Onun qəza törədən zaman sərxoş olduğu məlum olub. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində yol-nəqliyyat hadisəsi törətməkdə təqsirləndirilən Anar Şixiyevin cinayət işi üzrə məhkəmə iclası davam etdirilib. Hakim Azad Məcidovun sədrliyi ilə keçirilən prosesdə zərərçəkmişlər ifadə veriblər.**



Zərərçəkmiş Nadir Səlimov söyləyib ki, qəza baş verən zaman taksidə olub. O, hadisənin necə baş verdiyini xatırlamadığını deyib. Qeyd edib ki, hadisə anidən baş verib və aldığı xəsarətdən huşunu itirib: "Mən ayılanda xəstəxanada olduğumu bildim. Qəza baş verdiyini dedilər".

Zərərçəkmiş deyib ki, qəza zamanı ağır xəsarət alıb və sağ qolunu hələ də tam olaraq hərəkət etdirə bilmir. Nadir Səlimov ona dəymiş maddi zərərin bir qisminin Anar Şixiyev tərəfindən qarşılandığını deyib. O, şikayət və tələbinin olmadığını deyib. Təqsirləndirilən şəxs isə zərərçəkmişə kömək edəcəklərini bildirib.

Məhkəmədə digər zərərçəkmiş Kənan Məmmədəliyev də ifadə verib. O, qəza zamanı Anar Şixiyevin avtomobili ilə vurduğu taksinin sürücüsü olduğunu deyib. Qeyd edib ki, qəzadan sonra ona 17150 manat maddi zərər dəyib.

Hakimin suallarına cavab verən K.Məmmədəliyev dəymiş zərəri necə hesablandığını belə izah edib: "Mənim 13 minlik maşınım yararsız vəziyyətə düşdü. Məcbur qalıb onu 3 min manata satdım. Qəza baş verəndən sonra da işləmirəm. Başımdan ağır xəsarət almışam. Danışıqları, mənə deyilənləri tam olaraq başa düşmürəm. Bəzən heç eşitmirəm. Qarşımdakını dinləyə bilmirəm".

A.Şixiyevin vəkili zərərçəkmişin mülki iddiasını düzgün əsaslandırmadığını və qəbul edilə bilməyəcəyini deyib.

Qeyd edək ki, hadisə ötən ilin yayında Bakının Nəsimi rayonu, Alı Mustafayev küçəsi 12-nin qarşısında baş verib. Belə ki, A.Şixiyevin idarə etdiyi "KİA" markalı avtomobil Vəliyev Kənan Salman oğlunun sürdüyü "Mercedes"i vurub. Nəticədə "Mersedes"də olan 3 nəfər ağır vəziyyətdə Kliniki Tibbi Mərkəzə çatdırılıb. Avqust ayının 12-də isə xəsarət alanlardan 1972-ci il təvəllüdlü Cəbiyev Hamlet Rəfael oğlu xəstəxanada vəfat edib.

Baş vermiş qəza hadisəsi ilə bağlı Nəsimi RPİ-nin İstintaq Şöbəsində cinayət işi başlanıb və sürücü A.Şixiyev istintaqa cəlb olunub. Qəzanı törədən zaman sərxoş olduğu məlum olan sürücü barəsində həbs-qətimkan tədbiri seçilməyib. Ancaq məhkəmənin hazırlıq iclasında A.Şixiyev barəsində həbs-qətimkan tədbiri seçilib və o, məhkəmə zalında həbs edilib.

❑ **İlkin MURADOV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 26 (7196) 4 fevral 2019

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Qarabağda müharibə anonsu - İrəvan köhnə ampluasına qayıdır

## Ermənistanda Qarabağ klanı hakimiyyətdən getsə də, "müharibə partiyası"nın mövqeyi hələ ki güclü olaraq qalır; İrəvanın ziddiyyətli davranışına Bakıdan sərt reaksiyanın səbəbi...

**Keçən həftə Almaniyaya səfəri zamanı Ermənistanın baş naziri Nikol Paşinyan verdiyi açıqlama ilə Dağlıq Qarabağ məsələsində sülhə olan ən kövrək ümidləri çilik-çilik edib. Almaniya kansleri Angela Merkellə keçirdiyi mətbuat konfransında Nikol növbəti dəfə köhnə bayatısını oxuyaraq, "Ermənistanın baş naziri kimi mən yalnız Ermənistanın adından danışıqlar apara bilərəm, Dağlıq Qarabağın adından yox" deyib. Bu azmış kimi, tarixdə heç vaxt mövcud olmamış, indi də mövcud olmayan "Dağlıq Qarabağ xalqı" ifadəsini işlədib.**




Sitat: "Ermənistan Qarabağ münaqişəsinin sırf sülh yolu ilə həlli prinsipinə sadiqdir. Lakin münaqişənin istənilən həll variantı Ermənistan," Dağlıq Qarabağ" (dırnaqlar bizimdir - red.) və Azərbaycan xalqları üçün məqbul olmalıdır. Ümid edirdim ki, münaqişənin həllinin Qarabağ və Ermənistan xalqları üçün məqbul olmasının zəruriliyi barədə Azərbaycan tərəfi də bəyanat verəcək. Təəssüf ki, belə bir şey eşitmədik. Biz, əfsus ki, irəli gedəcəyimizlə bağlı böyük ümidlər bəsləyə bilmərik".

Göründüyü kimi, Paşinyan yenə yaş dəsmalı "ağrıyan" başdan açıb "ağrımayan" başa bağlamağa çalışıb. Guya sülh prosesini irəli aparmağa Azərbaycan əngəl yaradır, Ermənistanın işğalçı siyasəti yox. Üstəlik, dünyada guya "Dağlıq Qarabağ xalqı" adında da xalq varmış. Bunlar əlbəttə ki, ciddi sülh danışıqlarından və işğal gerçəyindən yayınmaq, beynəlxalq birliyin gözündə təcavüz faktını arxa plana itələmək üçün erməni tərəfinin uydurduğu bəhanələridir.

*****

Əvvəla, rəsmi Bakı dəfələrlə bildirib ki, Azərbaycan sərhədləri daxilində Dağlıq Qarabağa ən yüksək muxtariyyət verməyə hazırdır. Bundan da böyük güzəşt və ya bundan aydın mövqe? Yox, ermənilər Azərbaycan torpaqlarında ikinci saxta erməni dövlətinin qurulmasını Bakının tanımasını istəyirlərsə, bu, əlbəttə ki, xülyadır. Belə şey heç vaxt olmayacaq.

"Bizim ərazi bütövlüyümüz danışıqlar mövzusu deyil, heç vaxt olmayıb və heç vaxt olmayacaq". Azərbaycan prezidenti İlham Əliyevin fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş toplantıda çıxışı zamanı dediyi bu sözlər həmin gün Almaniyada olan Paşinyanın son iddia və uydurmasına ən yaxşı cavab sayıla bilər.

"Əlbəttə, ən başlıca vəzifə Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Azərbaycan bu istiqamətdə hüquqi cəhətdən, siyasi cəhətdən və bütün başqa cəhətlərdən öz mövqelərini möhkəmləndirir. Bizim ərazi bütövlüyümüz danışıqlar mövzusu deyil, heç vaxt olmayıb və heç vaxt olmayacaq. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınıb və son illərdə bu istiqamətdə əlavə addımlar atılıb. Mənim bir çox xarici həmkarlarımla imzaladığım sənədlərdə Azərbaycanın ərazi bütövlüyünə böyük dəstək göstərilib. Avropa İttifaqı ilə keçən il imzalanmış Tərəfdaşlıq Prioritetləri Sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı haqqında xüsusi bənd var. Beynəlxalq təşkilatlar, BMT, onun Baş Assambleyası, Təhlükəsizlik Şurası bizim xeyrimizə, yəni, ədaləti əks etdirən qətnamələr qəbul ediblər. Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, ATƏT-in və digər təşkilatların qəbul etdiyi qərarlar bizim mövqeyimizi möhkəmləndirir. Bütün bunlar münaqişənin həlli üçün hüquqi baza, hüquqi əsas yaradır və bu da bizim mövqeyimizi möhkəmləndirir", - deyə İlham Əliyev öz çıxışında vurğulayıb.

Ölkə başçısı bildirib ki, 2016-cı ilin aprel döyüşləri və ötən il keçirilən uğurlu Naxçıvan əməliyyatı Azərbaycanın gücünü, peşəkarlığını göstərib. "Biz strateji yüksəklikləri azad etmişik, strateji kommunikasiyalara nəzarət edirik. Bütün bunlar münaqişənin həlli üçün çox önəmli zəmin yaradır. Ona görə biz bu məsələ ilə bağlı öz siyasətimizi davam etdirəcəyik. Biz daha güclü olmalıyıq və biz güclənirik", - dövlət başçısı qeyd edib.

*****

Öz növbəsində Azərbaycan XİN-in mətbuat katibi Leyla Abdullayeva Paşinyanın "Azərbaycan tərəfinin güzəştləri, münaqişənin həllinin Dağlıq Qarabağ və Ermənistan xalqları üçün məqbul olması" kimi səsləndirdiyi fikirlərə münasibət bildirib: "İlk növbədə xatırlamaq istərdim ki, münaqişə nəticəsində məhz Azərbaycanın Dağlıq Qarabağ və ətraf 7 rayonu işğal olunub və onun 1 milyona yaxın əhalisi etnik təmizləməyə məruz qalaraq məcburi köçkünə çevrilib. Münaqişənin həlli ilə bağlı qəbul olunan beynəlxalq qətnamə və sənədlər, ilk növbədə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi işğalçı erməni qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Münaqişənin həlli ilə bağlı qəbul olunan bütün sənədlərdə və ATƏT-in Minsk Qrupu həmsədrlərinin təkliflərində söhbət "xalq" yox, erməni və azərbaycanlı əsilli iki əhalidən gedir. Ermənistanın baş naziri Nikol Paşinyan anlamalıdır ki, münaqişənin həlli Ermənistanın müstəqilliyinə təkan verəcək və ilk növbədə Ermənistan əhalisi üçün böyük iqtisadi imkanlar açacaq, yeni siyasi vəziyyət yaradacaq".

*****

Problem də elə bundadır - erməni tərəfinin Ermənistan əleyhinə işləyən sərt reallıqları anlamaq istəməməsində. Belə görünür ki, bunu onlara məhz Azərbaycan əsgəri anlatmalı olacaq. Əgər Ermənistanın Dağlıq Qarabağdan olan yeni rəhbəri də öz sələflərinin - Qarabağdan olan "müharibə partiyası"nın yolunu davam etdirəcəksə, necə deyərlər, köhnə ampluaya - Qarabağ klanının mövqeyinə qayıdacaqsa, o halda ermənilər üçün sülh perspektivi həmişəlik basdırılmış olacaq. Müharibə bütün ciddiliyi ilə gündəmə gələcək. Ermənistan sülhə hazır olmayacaqsa, onda gərək müharibəyə hazır olsun.

Şübhə yox ki, N.Paşinyanın Dağlıq Qarabağdakı bir ovuc separatçını sülh danışıqlarının müstəqil tərəfi kimi Azərbaycana və vasitəçilərə sırımaq cəhdi heç vaxt nəticə verməyəcək. İrəvan bu yolla vaxt uzatmaq istəyirsə, yenə yanılır. Çünki söhbət yalnızca Dağlıq Qarabağdakı azərbaycanlı və erməni icmasının münaqişənin maraqlı tərəfləri kimi təsbit edən ATƏT-in Minsk Qrupunun mandatından getmir. Ən əsası, dünya çoxdan bu konflikti Azərbaycanla Ermənistan arasında münaqişə kimi qəbul edib. Paşinyan bunu Almaniya səfəri zamanı rəsmi Berlinin də mövqeyindən gördü...



## Azərbaycan İsraildən "Dəmir Günbəz"i alıbmı?

**2019-cu ilin yanvarında bəzi KİV-lər ABŞ ordusunun İsrailin "Rafael" şirkətindən iki batareya "Dəmir Günbəz" hava hücumundan müdafiə sistemi almaq üçün Konqresdən maliyyə istəyəcəyini xəbər veriblər.**

Bu haqda "The National İnterest" yazıb (virtualaz.org). Məlumata görə sövdələşmənin qiyməti 373 milyon dollardır. Bura 240 "Tamir" raketi, 12 buraxılış qurğusu, iki radar və komanda mərkəzi daxildir. Gözlənilir ki, Pentaqon 2013-cü ilə qədər daha iki batareya "Dəmir Günbəz" ("İron Dome") sifariş verəcək.

İsrail müdafiə qüvvələri "Dəmir Günbəz" sistemini 2011-ci ildən tətbiq edir və o vaxtdan bəri sistem Livan, Suriya və Qəzza sektorundan buraxılmış 1700-dən çox idarəolunmayan raketi, minomyot mərmilərini zərərsizləşdirib. "Dəmir Günbəz" habelə təyyarələri, pilotsuz aparatları, ola bilsin qanadlı və ballistik raketləri də zərərsizləşdirə bilir.

Müəllif Sebastayn Roblin yazır ki, "Rafael" şirkəti 2016 və 2018-ci illərdə "Dəmir Günbəz"i Azərbaycana və Rumıniyaya satıb. Hərçənd bu ölkələrin neçə batareya "Dəmir Günbəz" aldığı məlum deyil.

Xatırladaq ki, Azərbaycanın İsraildən "Dəmir Günbəz" sistemləri almaq üçün anlaşdığı, hətta müqavilə bağladığı haqda bundan əvvəl bir neçə dəfə xarici mənbələrdə məlumatlar yayılıb.

YENİ MÜSAVAT
N 26 (7196) 4 fevral 2019

# ABŞ cəmiyyəti Trampdan bezib, ona əvəz axtarır

**ABŞ demokratları prezident Donald Trampı əvəzləməyə hazırlaşırlar. Burada bir çox namizədin adı səslənsə də, onların içində ən şanslısı hələlik keçmiş vitse-prezident Co Bayden görünür.**



“Hazırda Baydenin başı yeni yazdığı kitab üçün dəstək kampaniyasına qarışıb. Onun komandası isə aylardan bəri kadr hazırlığı və ianələr toplamaqla məşğuldur. Bütün bunlar keçmiş vitse-prezidentin 2020-ci ildə Donald Trampa meydan oxuyacağını söyləməyə əsas verir.

“ABŞ prezidentinin Kremldən asılılığı barədə yorucu debatlar, qəfəsdə saxlanılan miqrant uşaqların acı görüntüləri, mənəvi iflas, Amerikanın siyasi avtoritetinin bitməsiE Bəlkə Bayden bu kabusa son verdi”, - deyə Almaniyanın “Handelsblatt” qəzetindən Annet Mayrits və Moris Kots yazır.

Müəlliflərin fikrincə, qocaman siyasətçi baş verənləri dəyişdirə bilməsə də, hər halda gələcək üçün ABŞ kimi böyük dövləti daha şüurlu siyasətə, dürüstlüyə və qayda-qanuna geri qaytara bilər.

Yazıda Co Baydenin yaxın ətrafına istinadən hətta bir sıra nüfuzlu respublikaçı siyasətçinin də ona prezidentliyə namizədliyini irəli sürməsi üçün yalvardığı qeyd olunub.

“Keçmiş vitse-prezidentin tərəfdarları, onun demokratların Trampa uduzduğu elektoratı, yəni ağ fəhlə sinfini yenidən geri qazanacığına ümid edirlər”, - deyə məqalədə bildirilir.

Lakin Co Baydenin qarşısında bir sıra əngəllər də var. Bu, təkcə onun yaşı ilə bağlı deyil (2020-ci ildə Baydenin 78 yaşı tamam olacaq). Belə ki, o, həm də tipik ağ zadəgan siyasətçilərdən olub, həm də Vaşinqtonun köhnə hakim siyasi elitasının nümayəndəsi sayılır. ABŞ-da isə sonuncu faktorlar heç də namizədlərin xeyrinə işləmir.

Yazıda buna görə demokratların yeni parlayan ulduzu, 47 yaşlı texaslı siyasətçi Beto O’Rurkun adına diqqət yetirilib. Son Senat seçkilərində o, mühafizəkar Texas ştatında qüdrətli respublikaçı Ted Kruza olduqca az fərqlə məğlub olub. Onu hətta keçmiş prezident Barak Obama da dəstəkləyir.

Bir çoxlarının fikrincə, Co Baydenin yaşı da nəzərə alınaraq, iki namizəd arasında razılıq əldə olunması mümkün görünür. Belə ki, Co Bayden yalnız bir dövr üçün, yəni 2024-cü ilə qədər prezident, Beto O’Rurk isə vitse-prezidentliyə namizədliyi irəli sürülə bilər.

❑ **Musavat.com**



# ABŞ-ın Qarabağ həmləsinin qarşısı necə alınır?

## Qabil Hüseynli: “Bu münaqişənin həlli postsovet məkanındakı digər münaqişələrin də həllinə stimul verəcək...”



**“ABŞ-ın Qarabağ münaqişəsinin həlli üçün etdiyi həmlələr hər zaman Rusiyanın antihəmlələri ilə qarşılaşıb. Belə ki, 1999-cu ildə ABŞ həmləsinə cavab olaraq, Ermənistan parlamenti güllələnən edildi, hazırda isə ABŞ-ın təşəbbüslərinə qarşı Ermənistana Rusiya tərəfindən ”kökə və qamçı" siyasəti tətbiq edilir".**

Bu sözləri axar.az-a açıqlamasında sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. O bildirib ki, Dağlıq Qarabağ ətrafında sülhyaratma prosesində irəliləyişlərin qarşısını alınmasında hər zaman Rusiya fəallıq göstərib və nəticəyə də nail olub: “Sülhyaratma prosesində ilk həmlə ABŞ-ın təşəbbüsü ilə 1998-2000-ci illəri əhatə edir. Həmin vaxt ABŞ-ın o zamankı dövlət katibinin səlahiyyətli nümayəndəsi Bakı-İrəvan-Vaşinqton arasında daim səfərlər edərək, tərəflərin sülhə meyillənməsi və kompromislər hesabına sülhə nail olunmasına gətirib çıxaran razılaşmalar əldə edə bilib. Bu razılaşmalar 2000-ci ildə ATƏT-in İstanbulda keçirilən zirvə toplantısında imzalanmalı idi. Amma proses yarımçıq qaldı. Beləliklə, ”ABŞ-ın birinci həmləsi" adlandırılacaq bu həmlə nəticəsiz qurtardı. Bunun əsas günahkarının o zamanlar Rusiya olduğu ehtimal edilirdi. 2000-ci ildən sonra bölgədə sülhyaratma prosesi ilə guya Rusiya məşğul olmağa başlayıb. Putinin prezidentliyə gəlməsi ilə ABŞ-ın postsovet məkanındakı fəallığı heçə endirildi. Nəticədə Dağlıq Qarabağ problemi ilə məşğul olmaq Rusiyanın inhisarına keçdi. Rusiya bir neçə dəfə bu problemin həlli ilə bağlı prezidentlərin görüşünü və buna bənzər müxtəlif imitasiyalar etdi. Bu imitasiyalar Kazanda, Sankt-Peterburqda, Moskvada baş tutsa da, danışıqlar Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə nəticəsiz bitdi".

Politoloq vurğulayıb ki, ABŞ 2018-ci ilə qədər proseslərdən kənarda qalsa da, süni surətdə irəliləmələrin qarşısı alındığı bu prosesə yön vermək üçün artıq yenidən təşəbbüslər göstərməyə başlayıb: “Bu təşəbbüslərdə onu dünyanın inkişaf etmiş 7 ölkəsinin nümayəndələri (”Böyük yeddilər") də müdafiə edir. ABŞ 2018-ci ildən qəti surətdə problemin həll olunmasını nəzərdə tutan diplomatik səylərə start verib. Çünki ABŞ başa düşür ki, postsovet məkanındakı bütün münaqişələri, ilk növbədə Dağlıq Qarabağ problemini həll etmədən burada Rusiyanın nüfuzunu sarsıda biləcək addımlar atmaq mümkün olmayacaq. Ona görə də bu problemin həllinə girişməyi məqsəd kimi qarşısına qoyub. Dağlıq Qarabağ münaqişəsi həll edilsə, bu, postsovet məkanındakı digər münaqişələrin də həllinə stimul verəcək. Məhz ABŞ-ın təşəbbüsü ilə Avropa Parlamenti, Avropa Şurası Parlament Assemblyası, NATO-nun zirvə toplantıları 2015-ci ildən başlayaraq, Azərbaycanın ərazi bütövlüyü barəsində kifayət qədər cəsarətli bəyanatlar irəli sürüb. ABŞ dünya ictimai rəyini bu tezis ətrafında formalaşdırmağa çalışır".

Politoloq qeyd edib ki, tərəfləri sülhyaratma prosesinə meyilləndirmək üçün ardıcıl təşəbbüslər irəli sürülür: “Amma bu məsələlərdə aparıcı rolun yenə də ABŞ-a məxsus olduğunu hiss etdikdə Rusiya təlaşa düşür və yenidən Ermənistana qarşı təzyiqlər edir. Buna misal olaraq, Karasinin bu günlərdə İrəvana səfəri, Paşinyana güclü təzyiqlər göstərilməsini deyə bilərik. ”Kökə və qamçı" siyasəti, yəni əvvəl təzyiqlər, daha sonra Ermənistana hərbi yardımlar göstərilməsi, Su-30 SM təyyarələrinin veriləcəyi ilə bağlı vədlər yenidən ABŞ təşəbbüsünə qarşı Rusiya tərəfindən əks həmlələrin başladığını deməyə əsas verir".

# Rusiya, Türkiyə və İran Maduronu qoruya biləcəkmi?

## Əhəd Məmmədli: “Maduroya hər bir dəstək onun xeyrinədir”

## Əziz Əlibəyli: “Maduro Rusiya ordusunu Suriyada Əsədin etdiyi kimi dəvət etsə...”

**Venesuelada yarım aydır davam edən etiraz aksiyaları sәngimək bilmir. Avropa ölkələri bir-birinin ardınca özünü müvəqqəti prezident elan edən parlament sədri, müxalifət lideri Xuan Quaydonu Venesuela rəhbəri kimi tanımaqda davam edirlər.**

Venesuela uğrunda Rusiya, Türkiyə, İranla Amerika arasında ciddi fikir ayrılığının olduğu göz önündədir. Bu üç ölkə hazırkı Venesuela rəhbəri Nikolas Maduronun yanındadırlar, bunu açıq şəkildə bəyan ediblər. Birləşmiş Ştatlar isə ona boyun əyməyən Maduro iqtidarını cəzalandırmaqda israrlı görünür. Məhz ABŞ-ın təsiri ilə bir çox ölkələr Xuan Quaydonu Venesuelada prezident səlahiyyətlərinin müvəqqəti icraçısı kimi tanıyıblar.

Hazırda əsas suallar Türkiyə, Rusiya və İranın Maduronu qoruya bilib-bilməyəcəkləri yönündədir.

Politoloq Əhəd Məmmədli Maduro iqtidarının getdikcə dərindiyini düşünür: “Venesuelanın hava qüvvələrinin komandanı prezident kimi Quaydonu tanıdığını bildirib. Bu Maduro üçün çox ciddi zərbə oldu. Bunun davamı gəlsə Maduro devriləcək. Maduro da çevrilişin qarşısını aldığını və növbədənkənar seçkilərə getdiyini bəyan edib. Növbədənkənar seçkilərə gedilməsi artıq müxalifətin qələbəsidir. Türkiyə, Rusiya, İranın Maduronu qoruya biləcəyinə gəldikdə isə, İran öz hayındadır. İranı Suriyadan rus dostları belə çıxartmaq istəyir. Ümumiyyətlə, İranın Venesuelaya heç bir təsiri yoxdur. Türkiyə və Rusiya isə uzaqbaşı Maduroya sığınacaq verə bilərlər. Xalq dirənəndən, ordu, polis xalqın tərəfinə keçəndən sonra Rusiya ilə Türkiyə nə edə bilər? Venesuelaya indiyə qədər ən böyük dəstəyi Çin edib. Bu ölkəyə ən böyük kreditləri Çin verib. Çin bütün məsələlərdə olduğu kimi bu məsələdə də Rusiyadan fərqli özünü ortalığa atmayıb. Görünür, Çin pərdəarxası dəstək verməyi daha üstün tutur. Venesuelaya ABŞ və Böyük Britaniyanın təsiri daha çoxdur. Venesuelanın pulları dondurulmuş şəkildə ABŞ-dadır, qızıl ehtiyatı da Britaniyadadır. Hər iki ölkə də Venesuelanın vəsaitini ona verməyə imtina edib. Bu bir daha başqa dövlətlərə də göstərdi ki, öz valyuta, qızıl və digər kapitalınızı Qərb banklarına qoymayın”.

Politoloq üç ölkənin Venesuelada uğur qazanıb-qazanmayacaqları yönündə sualımıza belə cavab verdi: “Yenə təkrarlayıram, İranın Venesuelaya təsir imkanı sıfıra bərabərdir. Rusiya və Türkiyəyə gəldikdə isə, bu iki dövlətin də Venesuelaya təsir imkanı o qədər böyük deyil. Rusiyanın Venesuelaya imkan təsiri müqayisədə daha böyükdür. Rəsmi Moskva Venesuelaya borc verib. Düzdür ən böyük iqtisadi, maliyyə dəstəyini Venesuelaya Çin göstərib. ABŞ tarix boyu Latın Amerikasına ”arxa bağçası" kimi baxıb. Təbii ki, Amerikanın “arxa bağçası”nda özgə kiminsə gəzməyi Vaşinqtonda qıcıq yarada bilər. Venesuela hadisələri onu göstərdi ki, Latın Amerikasında yenə də ən güclü Amerikadır. İndiki halda kimdən, haradan asılı olmayaraq Maduroya hər bir dəstək onun xeyrinədir. Maduroya indi bir az da dayanmaq, tab gətirmək lazımdır. İndiki halda ona ən böyük, vacib dəstək tərəfdarlarının, ordunun, polisin onun yanında olmasıdır. Əks halda o devriləcək. Hesab edirəm ki, Rusiya və Türkiyənin Maduroya maksimum dəstəyi onu qorumaq üçün xüsusi təyinatlıların göndərməkdir. Bundan o yana son söz Venesuela xalqının, ordusunun, polisinin olacaq".

Beynəlxalq münasibətlər üzrə şərhçi Əziz Əlibəyli bildirdi ki, Venesuela qlobal güclərin növbəti dəfə hesablaşmaq istədiyi bir məkandır: “Buna qədər Suriyada, İraqda, Əfqanıstanda necə idisə, prinsipcə indi də elə bir fərqi yoxdur. Sadəcə, iştirakçı komponentlər fərqlidir. Belə ki, Venesuela neft ölkəsidir. Özü də neft ixrac edən ölkələrin sırasında 4-cü yeri tutur. OPEK üzvüdür. Ən nəhayət, ABŞ-ın ticarət savaşlarında rol oynayacaq bir mərkəzdir. Sadəcə, Maduro administrasiyası ABŞ hegemonluğunu qəbul etmir. Ölkə buna görə də müxtəlif sanksiyalardan əziyyət çəkir. ABŞ-ın qulağının dibində olan bu ölkə ilin-günün bu vaxtı ona görə yada düşür ki, ABŞ Rusiya və İrana qarşı apardığı müharibədə Venesuela Amerikanın rəqiblərinin yanında yer alır. Bax, buna görə də ABŞ və müttəfiqləri qanuni seçilmiş hakimiyyət qalaqala, müxalif parlamenti qanuni təmsilçisi kimi tanıdı. Türkiyə prezidentinin çox sevdiyi bir söz var: ”Dünya beşdən böyükdür". O sözün içində gizlənən BMT-nin nizamnaməsi ilə düzənlənən ikinci dünya müharibəsindən sonrakı dövrün idarə edilməsinə üsyandır. Və bu çərçivədə zaman-zaman o ölkələr güclənən söz sahibi olmaq istəyənlərə hər cür əngəl yaradırlar.



Türkiyə prezidentinin Maduronu müdafiəsi də bundan qaynaqlanır, “15 Temmuz”, “Gezi olayları” Venesueladan daha əvvəl Türkiyənin yaşamış olduğu analoq olaylardır. Venesuela indiki halda ən pis ssenariyə də hazır olmalıdır. Əgər Maduro Rusiya ordusunu Suriyada Əsədin etdiyi kimi dəvət etsə, Venesuelada da vətəndaş müharibəsi başlaya bilər. Bax, məsələ bu qədər vahiməlidir. ABŞ Maduronu atmaqla özü üçün oyuncaq Venesuela idarəetməsi yaratmağa çalışır. Nə qədər nail olacaqlar, bunu Rusiyanın əsl gücü göstərəcək".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 26 (7196) 4 fevral 2019




# "Pul istədim, o da söyüş söydü..."

## 19 manata görə taksi sürücüsünə 28 bıçaq zərbəsi vurdular

**19 manata görə taksi sürücüsünü öldürməkdə təqsirləndirilən şəxslər növbəti dəfə hakim qarşısına çıxarılıblar. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə təqsirləndirilən Pərviz Məmmədov, Rahin Hüseynov və Şamil Bayramovun cinayət işi üzrə məhkəmə iclası keçirilib.**

Hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən prosesdə şahidlər ifadə veriblər.

Şahid Eldar Məmmədov təqsirləndirilən şəxslərin üçünü də Sumqayıtda kafedə gördüyünü deyib. Məlum olub ki, təqsirləndirilən şəxslər sürücünü qətlə yetirdikdən sonra həmin kafeyə gedərək çay içiblər, sonra da oradan çıxaraq taksiyə miniblər.

Digər şahid Elxan Mehrəliyev isə dindirilərkən deyib ki, yol kənarında maşının ağaca çırpılaraq dayandığını görüb. Maşına yaxınlaşarkən sürücünün qan içərisində olduğunu görüb və polisə məlumat veriblər.

Məhkəmədə şahid qismində ehtiyatda olan polkovnik Abbasqulu Məmmədov da ifadə verib. Polkovnik də sürücünün qətlə yetirildiyi maşını yol kənarında görüb.

O deyib ki, maşının ağaca çırpıldığını görüb və yardım üçün oraya yaxınlaşıb.

Şahidlərin dediklərindən məlum olub ki, qətlə yetirilən taksi sürücüsü Aydın Şıxəliyev 28 bıçaq zərbəsi aldıqdan sonra maşını idarə etməyi bacarıb. O, özünü xəstəxanaya çatdırmağa çalışıb. Lakin qanitirmədən yolda keçinib. Maşın da ağaca çırparaq dayanıb.

Məhkəmədə şahid qismində Nail Süleymanov da ifadə verib. Məlum olub ki, Nail telefon təmiri ilə məşğul olur. O, təqsirləndidilən şəxslərdən iki ədəd mobil telefon alıb. Həmin telefonlar da qətlə yetirilən taksi sürücüsünün olubmuş. Həmin telefonlardan birini 10 manata, digərini isə 2 manata satıblar.

Hakim Nail Süleymanovdan 2 manata alınan telefonun nə işə yaradığını soruşub. O isə deyib ki, həmin telefonun bəzi ehtiyat hissələrini təmir zamanı istifadə edirmiş.

Məhkəmənin davamında həbs edilən şəxslərdən Pərvizin atası Firudin Hüseynov dindirilib. O, oğlunun bəzən anormal hərəkətlər etdiyini, evə gəlmədiyini, yersiz hərəkətlər etdiyini deyib. O, oğlunun psixoloji problemlərinin olduğunu deyib. Hakim isə soruşub ki, nə zamansa oğlunu müalicə etdiribmi. Firudin Hüseynov imkanı olmadığı üçün oğlunu həkimə apara bilmədiyini deyib.



Digər şahid isə təqsirləndirilən Şamilin atası Sahib Bayramov olub. O deyib ki, oğlu həmin gün dostunun ad gününə getdiyini deyib. Ata bildirib ki, oğlunun cibində 10 manat pul olub.

Bildirək ki, təqsirləndirilənlərdən Rahin Hüseynov həbsxanada və məhkəmə zalında digər şəxslərdən ayrı saxlanılır. Buna səbəb onun digərlərindən fərqli ifadə verməsi və aralarında mübahisə yaranmasıdır.

Təqsirləndirilən şəxslər məhkəmədə deyib ki, birlikdə yeyib-içiblər. Sonra da pul tapmaq üçün plan qurublar və quldurluq ediblər.

Təqsirləndirilən Rahin sürücüyə ilk bıçaq zərbəsini vurub: "Pul verməsini tələb elədim. Amma o, söyüş söydü, mübahisə eləməyə başladıq. Məni yumruqla vuranda mən də onu bıçaqla vurdum. Ən çox 5 bıçaq zərbəsi vurmuşam. Digər zərbələri mən vurmamışam".

Şamil Bayramov isə deyib ki, pul lazım olduğu üçün belə cinayət törədiblər: "Rahin dedi ki, gedək belə bir iş görək. Biz də razılaşdıq. Mənim də, Rahinin də bıçağı var idi. Taksiyə minəndə Rahin sürücüdən pul istədi. Onlar mübahisə edəndə sürücü Rahini vurdu. Sonra da məni vurdu. Mən də onu bıçaqla vurdum".

Hadisəni törədən zaman 18 yaşının tamam olmadığını deyən Şamil bu işə onu Ruhinin sövq etdiyini deyib.

Məhkəmədə təqsirləndirilən üçüncü şəxs Pərviz də dindirilib. 22 yaşlı Pərviz hadisə zamanı şokda olduğunu və belə bir cinayətdə iştirak etmək istəmədiyini söyləyib.

Məhkəmənin növbəti iclası fevralın 3-nə təyin edilib.

Xatırladaq ki, bu hadisə ilə bağlı Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidməti məlumat yayıb. Məlumatda bildirilir ki, hadisə bu il mayın 8-də Sumqayıt şəhəri H.Z.Tağıyev qəsəbəsində baş verib. Qəsəbə ərazisində "Mercedes" markalı avtomobilin sükanı arxasında çoxsaylı bıçaq xəsarətləri nəticəsində naməlum bir şəxsin öldürülməsi barədə Şəhər Polis İdarəsinə məlumat daxil olub. İstintaq hərəkətləri meyiti tapılan şəxsin "Mercedes" markalı avtomobilin sürücüsü, paytaxt sakini Aydın Şıxəliyev olması müəyyənləşdirilib.

Əməliyyat-axtarış tədbirləri nəticəsində cinayəti törətməkdə şübhəli bilinən Bakı şəhər sakini P.Məmmədov, Sumqayıt şəhərində yaşayan R.Hüseynov və Şəmkir rayon sakini Ş.Bayramov tutulublar.

İlkin məlumata görə, 3 nəfər taksi sürücüsünü qarət etmək üçün onun maşınına miniblər. Yolda maşını saxlatdıraraq sürücüdən pul tələb ediblər. Aralarında mübahisə yaranan zaman isə onu bıçaqlayaraq qətlə yetiriblər. Taksi sürücüsünün cibində olan 19 manatı götürərək hadisə yerindən qaçıblar.

**İlkin MURADOV,**
**Musavat.com**

# Əlisi saxta, Vəlisi saxta...



**Sevinc TELMANQIZI**
**s.qurbanova@gmail.com**

**"Hər toya yeni paltar" şüarının daşıyıcısı olan milli xanımlarımız dərin şok içərisindədir bu günlərdə. Çünki cicilərini daha çox aldıqları iri geyim mağazasının məsul şəxslərinin hüquq-mühafizə orqanları tərəfindən həbs edilib. Həbsə səbəb mağazalar şəbəkəsi tərəfindən bazara saxta etiketlərlə mal çıxarılmasıdır. Belə ki, mağazalar şəbəkəsinin məsul şəxslərinin təşkilatçılığı ilə sexlərdə tikilmiş mallara dünya brendlərinin etiketləri vurularaq satışa çıxarılırmış.**

Olayın üzə çıxmasında isə milli manıslarımızın və nüfuzlu şəxslərin rolu böyük olub. Onların arasında mağazadan alış-veriş edənlər çox olub. Onlar da baxıb görüblər ki, booy, anan ölsün, Ramazan, bu geyim o geyim deyilmiş. Hər zaman təbiiliyə, dürüstlüyə, təmizliyə önəm verən manıslarımız bu olaydan şikayətçi olublar. Niyə də yox? Toyları, konsertləri fonoqramla yola verəndə, özlərinə saxta dodaq, saxta saç, saxta... düzəltdirib ortaya çıxanda nə olar? Əsas odu, ruh yaşasın. Yəni, paltarın özü brend olsun.

Hadisə ilə bağlı xəbərin detallarını oxuyanda isə millət olaraq dəhşətin üst qatlarına çatdığımızı hiss etdim. Belə ki, mağazalar özünü şəbəkəsinin rəhbəri kimi təqdim edən Aybəniz adlı qadın xəbəri təsdiqləsə də, ətraflı məlumat verməkdən imtina edib. Bildirib ki, bu işə kənardan rəhbərlik edir: "Pul mənimdir, amma heç bir sənəddə adım, imzam keçmir. İl yarım əvvəl məndə xərçəng xəstəliyi aşkarlandı, işçilərlə əlaqə saxladım və dedim ki, ölsəm, pulum sizə haladır, ölməyib qalsam gəlib haqq-hesabımızı çəkəcəm işimiz davam edəcək. Onlar da gedib bu cür davam ediblər. Onlara dedim ki, mənim adım olan yerdə gərək belə etməyəydiniz. Türkiyədə bu, pis iş deyil, amma Azərbaycanda maddə veriblər. Bu, ticarətdir, vəzifə deyil. Onsuz da bundan sonra şöbələrin hamısını bağlayacam, bircə şöbə fəaliyyət göstərəcək".

Nə gözəl məmləkətdir. Açıqlamanı oxuyursan, yadına "Varlılar da ağlayır" serialı düşür. Süjet xəttinə bax bəhanənin: öləcəyimi bilən kimi vəsiyyətimi etdim. Ondan sonra nələr oldu, xəbərim olmadı. Öz canımın hayındayam və sair və ilaxır. Əslində qadını da qınamaq olmur. Birincisi, ona görə ki, adətən belə bərkgedən mağazalar şəbəkəsinin arxasından bərkgdən bir məmurun başı çıxır. Onu ələ verməK həyatınla "klas-klas" oynamaq, özünü daha betər bir serialın içində tapmaqdır. İkincisi, biz ellikcə bu bəhanələri çox eşitmişik. Bütün korrupsioner məmurlar həbs olunanda, əllərinin altından qızıl külçələri, mallar, mülklər çıxanda təxminən bu cür bəhanələr səsləndirirdilər: mənim xəbərim olmayıb, sui-istismar qurbanı olmuşam. O yekə-yekə korrupsionerlərin, ən aşağı keyfiyyətlərə malik insanların verdikləri "həyati müsahibələr"də əsas xətt nə olur, xatırlayırsızmı? "Ən böyük problemim insanlara inanmağım, saflığım, hamını özüm kimi bilməyimdir". Hə, yəni, mən yaxşıyam, ətrafım pisdir.

Qadınlarımızın "ülvi hissləri" ilə oynayıb, onlara saxta mal satanların əl-üzünü yumaq fikrim yoxdur. Qanunu pozublar, cəzalarını da alacaqlar. Amma bu ölkə başdan-ayağa saxta etiket vuranlarla dolu deyilmi? Məşhur brendlərin birinci hərfini dəyişdirib, şəbəkə quranlardanmı danışaq, yoxsa "balalarımın ölmüşünün ölüsünü öpüm" deyib dəri olmayan ayaqqabını dəri kimi sırıyanlardanmı? Adi misal: ölkə "Gucci" firması koftası, paltarı geyinənlərlə doludur ilk baxışda. Realdımı? Yox, təbii. Gedin Sədərək, Binə yarmarkalarına, saxta etiketlər göz deşir. Şəhərin mərkəzindəki ayaqqabı, geyim mağazalarına girən kimi "donuz iyi" baş çatladır. Bilirsən ki, haramı halala necə qatışdırıblarsa, bir müddət sonra özləri də bu işləklərini unudublar. Ona görə ürəklə balalarının canına and içirlər. Əlisi saxta, Vəlisi saxta, qırılmışın hamısı saxta....

Turizm firmaları erkən rezervasiya elanları verir. Maraqlananda məlum olur ki, bunun adı erkən rezervasiyadır. Dollarla qiymət qoyur, vurub bölürsən, gəlib qaynar turun qiyməti ilə üst-üstə düşür. Bu, saxtakarlıq deyilmi? Kafeyə gedirsən, 4 armudu stəkan tutmayan bir çaydan çayı sənə minimum 8 manata satırlar. "Asan Xidmət"ə qədər bütün sənədləşmə işlərimizi "ceyran belində" qiymətlərlə həll edirdik. Qurum yarananda öyrəndik ki, bu günə qədər bizə qaz münasibəti göstəriblər. Kaseti, kitabı, dərmanı, ərzağı saxta olan ölkədə biz hansı təmizlikdən danışırıq ki?

Cəzalandırılmasın demirik. Hamısı cəzalandırılsın istəyirik. Xəstələnəndə ovuc-ovuc dərman içdiyimiz halda bizi sağalmağa qoymayanları da ifşa edək. Rezin dadı verən qidaları bizə təbii məhsul adı ilə hopduranları da, bütün keyfiyyətsizlikləri canımıza ötürənləri də... Heç birini bağışlamayaq. Çünki bizdən gedənləri geri heç bir üzrlə qaytara bilməyəcəyik.

# Ziya Məmmədovun 100 milyonluq “intellektual korrupsiyası”

## Yüzlərlə müşahidə kamerasına, fiber optikə, GPS tipli avadanlıqlara, 10 minlik monitorlara məxsus Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi sıradan çıxıb

**“Bas düyməni, gör işləyir? Heç monitor açılmır ki, ana səhifədə nə yazıldığını görəsən. Əvvəllər monitor yalandan da olsa göstərirdi”. Metronun “Neftçilər” stansiyası yaxınlığındakı avtobus dayanacağında 30 saylı marşrut avtobusu gözləyən sərnişin Kamil burada quraşdırılan interval monitorunun durumundan danışarkən belə deyir.**

Onun sözlərinə görə, indiyə qədər Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi tərəfindən quraşdırılmış bu monitorlar işinə yaramayıb:

“Hər gün 30 nömrəli marşrutdan istifadə eləyirəm. Hələ bir dəfə bu aparatın düyməsinə toxunanda görməmişəm ki, avtobusun hansı ərazidə olduğunu, nə vaxt dayanacağa çatacağını göstərsin”.

Nüsrət isə Bakıxanov qəsəbəsi, Komsomol dairəsində 49 saylı marşrutu gözləyir. Onunla da söhbətimizdən aydın olur ki, sözügedən qurğu sərnişinlərə fayda verməyib: “Bu qədər pul xərcləndi, guya nəqliyyat intellektual idarə olunacaqdı. Amma hanı? Nə intellektual, başdan xarab bir aparatdır, əlini vur, heç nə göstərmir. Guya şəhərdə tıxacın yüngülləşməsinə səbəb olacaqdı, ictimai nəqliyyatda nizam-intizam olacaqdı, sərnişin avtobusun haçan gələcəyini biləcəkdi. Məsələn, Avropada belədir. Bizdə işləmədi, çox dayanacaqlarda bu monitorlar quraşdırılsa da, lazımsız əşyaya çevrilib”.








### “O aparatların başı əvvəldən xarabdır”

“O aparatların başı əvvəldən xarabdır, heç bir intellektuallığı, çoxbilmişliyi yoxdur. Gör neçə ildir ki, dayanacaqlarda həmin monitorlar quraşdırılıb, soruşun, görün hansı sərnişin avtobus gözləyəndə ordakı qrafikə, intervala baxır?”, - deyə şəhər sakini Vahid ironik şəkildə giley edir.

Doğrudan da, şəhərin mərkəzində və ətraf ərazilərində dayanacaqlarda quraşdırılmış bu monitorlar fəaliyyət göstərmirsə, o zaman NİİM hansı funksiyanı yerinə yetirir?

Axı paytaxtın ictimai nəqliyyatından heç bir intellektual idarəetmədən söhbət gedə bilməz. Hər hansı sərnişin xatırlamır ki, mindiyi avtobusun hansı intervalla işlədiyini, neçə saniyəyə dayanacaqda olacağını həmin monitorlardan öyrənib.

Ona görə dövlət vəsaitinin havaya sovrulduğunu, bu qurumun isə heç bir iş görmədiyini əminliklə söyləmək olar.

Bu sistem 2007-ci ildə yaradılıb. Artıq 12 il ərzində bu struktur təkmilləşməli, şəhərin ictimai nəqliyyat sistemi intellektuallaşmalıydı.

Sanki qurum qeybə çəkilib, bu nəhənglikdə qurum mövcud deyil. Qurumun internet resursları da aktiv fəaliyyət göstərmir.

Əslində, çox gözəl bir təşəbbüs olan intellektual idarəetmə mərkəzi, çox təəssüf ki, böyük miqdarda maliyyə ayrılan, lakin faydasını yetərincə görmədiyimiz layihələrdən oldu.

### Kiyevdə 30 milyona, Bakıda isə...

Nəqliyyat Nazirliyi və Cənubi Koreyanın birgə layihəsi olan NİİM-in reallaşmasına büdcədən 100 milyon manat vəsait ayrılmışdı. O zamankı nəqliyyat naziri Ziya Məmmədov bu layihə ilə bağlı böyük vədlər verirdi.

O, bütün ölkəboyu bu sistemin işləyəcəyini bildirirdi. Təəssüf ki, nazirlik zamanında bu qurumun effektiv fəaliyyəti üçün zəruri olan addımları atmadı.

Dayanacaqlarda quraşdırılan və hərəsinin dəyəri az qala 10 min dollar olan monitorların vəziyyəti göz qabağındadır və ümumilikdə 100 milyonun necə göyə sovrulduğu göz önündədir.

Yüzlərlə müşahidə kamerasına, kilometrlərlə fiber optik infrastruktura, yüzlərlə avtobuslarda quraşdırılan GPS tipli avadanlıqlara, dünyanın ən böyük monitoruna məxsus olan bu nəhəng infrastruktur tamamilə sıradan çıxıb.

Kiyevdə intellektual idarəetmə sistemi təxminən 30 milyon manata başa gəldiyi halda, Bakıda bu sistemə 100 milyon xərclənməsinin heç bir məntiqi izahı yoxdur.

Sadəcə, vaxtilə büdcə pullarını talayan sabiq nazir Z.Məmmədovun növbəti “intellektual korrupsiyası”na görə bu layihə batıb, ayağa qaldırmaq mümkün olmur.

Rəsmi məlumata görə, bu sistemin işləməsi üçün dayanacaq və avtobuslarda 40 mindən çox avadanlıq qurulub, nəqliyyatın hərəkəti ümumi sahəsi 120 kvadratmetr olan monitor vasitəsilə idarə edilir. Hətta qurumun Bakı Nəqliyyat Agentliyinin balansına verilməsi də nəyisə dəyişə bilmədi.

### BNA sözçüsü: “Agentlik iş aparır ki, dövlətin çəkdiyi xərclər nəticəsiz qalmasın”

BNA-nın mətbuat xidməti rəhbəri Mais Ağayev “Yeni Müsavat”a bildirdi ki, monitorların işləməməsinin bir neçə səbəbi var:

“Bildiyiniz kimi, monitorlar bizdən öncə quraşdırılıb və quraşdırılan zaman da yaradılan sistemdə müəyyən çatışmazlıqlar olub. Digər bir yandan bu monitorların işləməməsi müxtəlif vaxtlarda yollarda koordinasiyasız işlərin aparılması olub.

Müxtəlif təşkilatlar və ya ayrı-ayrı şəxslər tərəfindən qazıntı işləri zamanı monitorları qidalandıran xətlər optik naqillər yararsız hala salınıb. Ona görə də monitorlar bu gün işləmir. Bakı Nəqliyyat Agentliyi ötən dövr ərzində NİİM-in fəaliyyətinin təkmilləşdirilməsi dayanıqlı sistem əsasında fəaliyyət göstərməsi istiqamətində mühüm işlər görüb.

Bununla bağlı müxtəlif xarici ölkə şəhərlərinin aidiyyatı qurumları ilə də sıx əməkdaşlıq edilir. Bunlar hamısı zaman alan məsələlərdir.

Müəyyən bir vaxtdan sonra dayanacaqlarda yenidən informasiya tabloları sərnişinlərimizə xidmət göstərəcək.

Çətin proses olsa da agentlik tərəfindən bu istiqamətdə iş aparılır ki, dövlətin çəkdiyi xərclər nəticəsiz qalmasın və camaatımız rahat şəkildə bu sistemdən istifadə edə bilsinlər".

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat**
**Fotolar müəllifindir**

# Zərdabda örüş sahəsi qalmaqalı

## Şahhüseynli şahlıq dövrünə qaytarılıb; sakinlər ölkə rəhbərliyindən kömək istəyir

**Zərdabın Şahhüseynli kənddə örüş sahələri zəbt olunub. Sakinlər məsələ ilə bağlı dəfələrlə rayon İcra Hakimiyyətinə müraciət etsələr də, nəticə olmayıb. Şahhüseynlilər məsələ ilə bağlı ölkə rəhbərliyinə növbəti dəfə məktub yazıblar. Eyni zamanda, “Yeni Müsavat” redaksiyasına müraciət ediblər.**



Deyirlər ki, Zərdab rayon İcra Hakimiyyəti başçısının Şahhüseynli kənd ərazi vahidi üzrə nümayəndəsi Abubəkir İsayev vaxtilə bələdiyyə sədri olarkən kəndin torpaqlarını özünə yaxın şəxslərə paylayıb: “Torpaq islahatı aparılanda kəndin hər sakininə 1 hektar olmaqla torpaq sahəsi paylandı. Həmin vaxt kənd ağsaqqalları toplaşıb qərar verdilər ki, hərə 25 sot torpaq sahəsindən örüş sahəsi üçün ayırsın. Belə də oldu. Kənd sakinlərinin torpaqları hesabına 70 hektardan artıq örüş sahəsi formalaşdı. İllərlə həmin ərazidən örüş sahəsi kimi istifadə etdik. 5-6 il olar ki, həmin torpaqlar mal-heyvanı daha çox olan kənd sakinləri tərəfindən zəbt olunub. Abubəkir İsayev də onlara sənədlər verib. İndi də camaat mal-heyvanını həmin ərazilərə apara bilmir. Aparanda camaatı polisə verəcəkləri ilə hədələyirlər, qarşıdurma yaranır, qalmaqal olur”.

Kənd sakinləri yazırlar ki, örüş torpaqları qanunsuz olaraq 3-4 nəfərin arasında bölünüb: “Şahhüseynli camaatı mal-heyvan saxlaması kənddə yaşaya, dolana bilməz. 5-6 ildir ki, zülm çəkirik, mal-heyvan saxlamaq çox çətinləşib. Zərdab İcra Hakimiyyətinin başçısı Lütvəli Babayevə yazırıq, o da məktublarımızı Abubəkir İsayevə göndərir. İcra nümayəndəsi də deyir ki, gələn il örüş sahələrinizi qaytaracaqlar. Hər il eyni vəd verilir. Bizlərin örüş sahələri hesabına Kamil Heydərova 40 hektar, Böyükəli Qarayevə16 hektar, Azər və Mənsum Pənahov qardaşlarına 30 hektar torpaq veriblər. Mal-heyvanı həmin örüş sahələrinə keçən qalmaqal yaranır, bizləri hədələyirlər. Şahhüseynlidə örüş sahəsi qalmayıb. 300-dən çox təsərrüfat var. Ortada balaca yer qalıb, həmin yer də şorandır deyənə ot bitmir. Lütvəli Babayevə istəsə, məsələni 1 günə həll edər, ancaq Abubəkir İsayevin üstünə atır, o da bizi aldadır. Ondan camaat soruşur ki, hansı əsasla kəndin örüş sahələrini bu adamlara vermisən. Abubəkir İsayev deyir ki, getdik gördük əkirlər verdim onlara. Bu adam öz vəzifə məsuliyyətini unudaraq müvafiq qanunvericilin tələblərinə məhəl qoymur. Abubəkir İsayev orta məktəbdə çox zəif oxuyub. Onun harada nə vaxt ali təhsil alması çox təəccüblüdü. Hay-küylü davranışı və məmura uyğun olmayan kobud ünsiyyəti təhsilli adam təəssuratından uzaqdır. İstənilən məsələ ilə bağlı ona edilən müraciətin qarşılığında şəxsi maraq güdür. Hər nə olursa, rayon rəhbərliyinin tapşırığı kimi qələmə verir. Kəndin əsas əkin sahələridə Abubəkir İsayevin özü və yaxın ətrafı tərəfindən uzun müddətə icarəyə götürülüb. Kəndin daha bacarıqlı, təsərrüfatda səriştəsi olanlar isə kənarda qalıb”.

Məsələ ilə bağlı adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**




# Rusiyada azərbaycanlı sahibkar dəm qazından öldü

**Rusiyanın paytaxtı Moskva şəhərində yaşayan azərbaycanlı sahibkar şəxsi avtomobilində dəm qazından boğularaq ölüb. Virtualaz.org-un məlumatına görə, əslən Salyan rayonundan olan 49 yaşlı Ağalar Sovet oğlu Cəbrayılov səhər işə gedərkən qarajda olan “VAZ-2106" markalı avtomobilini işlək vəziyyətdə saxlayaraq, çıxmaq üçün qapının ağzına yığılmış qarı təmizləyib və yenidən maşına qayıdarkən salona toplanmış dəm qazından boğularaq dünyasını dəyişib.**

Ağalar Cəbrayılov 22 il idi ki, Moskva şəhərindəki bazarlardan birində ticarətlə məşğul idi. O, bu günlərdə Azərbaycana dönməyi planlaşdırırmış. Elə bu məqsədlə 2 azyaşlı oğlunu və həyat yoldaşını Azərbaycanda ata yurdu olan Salyan rayonuna göndəribmiş.

Mərhumun nəşi Azərbaycana gətirilərək torpağa tapşırılıb.

YENİ MÜSAVAT
N 26 (7196) 4 fevral 2019

# Taksi xidməti barədə bilmədiklərimiz

## Ən təhlükəli peşənin özəllikləri, tariflər, hiylələr və daha nələr...

**Son illər Azərbaycanda fəaliyyəti güclənən sahələrdən biri də taksi firmalarıdır. Sayı gündən-günə artan taksi firmaları sərnişinlərə də xeyli variantlar təklif edir. Səfərlər daha da ucuzlaşır, komfort daha yüksək səviyyəyə çatır. Sonucda hətta maşını olan vətəndaşlar da taksi xidmətindən istifadəyə üstünlük verir. Çünki bəzən şəhərə gedib parkinq yeri tapmaq, təkcə iki saatlıq parkinq üçün 3 manata yaxın vəsait ödəmək heç də sərfəli görünmür.**




### Hansı ölkədə taksi xidməti ucuz, hansında bahadır?

"Yeni Müsavat" bu yazısında dünyada və Azərbaycanda taksi firmaları, onların tarifləri, habelə bu sahənin özəllikləri barədə yazır. Öncə dünyadakı tariflərdən başlayaq.

Mərkəzi İsveçrədə olan maliyyə qurumu UBS, 2018-ci il üçün yayınladığı "Qiymətlər və qazanclar" sənədində ölkələrin şəhərlərinə görə taksiylə gediləcək 5 kilomerlik səfərin neçə dollar olduğunu açıqlayıb. Sənədə görə, 5 km səfər üçün ən yüksək taksi tarifləri Norveçin Oslo şəhərindədir. Osloda taksilərlə 5 km səfər gerçəkləşdirmənin məbləği 32 dollardır. Eyni məbləğdə pulla taksi ilə Ukrayna və Hindistanda 66 kilometr yol getmək olar. Kiyevdə taksi ilə 4.8 kilometr yol getmək 1,59 dollara, Dehlidə isə 1.54 dollara başa gəlir. Yeri gəlmişkən, bu, dünyada ən ucuz taksi qiymətləridir.

Bahalı taksiləri ilə seçilən növbəti Avropa ölkəsi İsveçrədir. Araşdırmaya əsasən Sürixdə taksi ilə 3 mil məsafə qət etmək üçün 27,59 dollar ödəmək lazım gəlir. Bahalı taksilərə görə ilk üçlüyü Hollandiya paytaxtı tutur. Amsterdamda taksi sifariş etmək 16,22 dollara başa gəlir.

Dünyada ən ucuz taksi səfəri isə Hindistanın paytaxtı Yeni Dehlidə gerçəkləşdirilir - 5 km səfər 1.54 dollar. İstanbulda taksi İlə səfərin qiyməti isə eyni kilometr üzərindən 5.66 dollardır. Şimali Amerikada müvafiq olaraq 14.65, Avropada 11.77, Afrikada 5.3, Cənubi Amerikada 5.06, Asiyada 4.38 dollardır. Əslində hesablama apara bilmək üçün bu ölkələrdəki taksi sürücülərini illik nə qədər vergi ödədiyi və digər xərclərini də qarşılaşdıraraq hesablamaq lazımdır. Əks halda, ortadakı rəqəmlər reallığı əks etdirməyə bilər.

Taksilərin qiymətləri ilə bağlı detallara yenidən qayıdarıq. Hələliksə dünyada taksilərin yaranma tarixindən yazaq. Taksilər 18-ci əsrdə Fransada peyda olub və bunlar muzdla tutulan "taksi insanlar" idi. Arabalı taksilər hələ Qədim Romada mövcud olub. Arabanın üzərində xüsusi "taksometrlər" də quraşdırılıb və bu taksometr adi bir çanaq olub və təqribən hər 200 metrdən bir bu çanağa bir daş atılırmış. Taksi xidmətinin haqqı isə mənzil başına çatdıqda çanaqdakı daşların sayına görə təyin edilirmiş.

Taksi üçün sarı rəng hələ 20-ci əsrin əvvəlində Yellow Cab şirkəti tərəfindən seçilib. Şirkət sırf taksi fəaliyyəti ilə məşğul olması üçün avtomobillər istehsal edirdi. Avtomobillər üçün sarı rəngin seçilməsində səbəb sadə idi. Belə ki, sarı rəng uzaqdan daha aydın görünür.

1950-ci illərdə isə taksilər üçün xüsusi xarici fərqləndirici əlamət olan "şahmat lövhəsi" və yaşıl işıq yaradıldı. Bu taksinin hazırda bol olduğu mənasına gəlirdi. Dünyanın ən bahalı taksisi İngiltərədədir. Bu reytinqdə ikinci pillədə İtaliya, üçüncü pillədə Almaniya qərarlaşıb.

Ən ucuz taksi isə Çindədir və burada taksi sürücülərinin 30%-i qadınlardır. Finlandiyada isə taksi sifarişlərinin, demək olar ki, yarısı internet vasitəsilə həyata keçirilir. Venesiya, Yeni Zellandiya və Hollandiyada isə su taksiləri geniş yayılıb. Hazırda hava taksiləri də populyarlıq qazanmağa başlayıb.

Çili isə ən qeyri-adi taksilərə sahibdir. Bu taksi - inəklərdir. Vyetnam da Çilidən geri qalmır və burada getmək istədiyiniz yerə fil üzərində getmək təklif edilir.

### Yerli taksi firmaları - kim nə təklif edir?

Bakıda 10-15-ə yaxın taksi firması fəaliyyət göstərir. Tariflər isə bir-birindən fərqlidir. Əksəriyyəti müştərini ilk 10 dəqiqə gözləmək üçün heç bir məbləğ tələb etmir, sonrakı hər dəqiqə üçünsə 5 qəpik tələb edirlər. Bir kilometr isə 0.4-2 manat arasında qiymətləndirilir. Bəzi firmalar tarifi fərqli əsaslarla müəyyənləşdirib. Belə ki, 4 kilometrə qədər 2.40 manat təklif edən də var, 2 kilometrə görə 2.20 manat təklif edən də. Amma bəzi firmaların tıxac saatları üçün fərqli tələbləri var. 17.00-19.00 radələrində gediş haqqına 1 manat əlavə tələb edən firmaları da yaddan çıxarmaq olmaz. Bütün hallarda seçimin olması üstünlükdür. Çünki rəqabət qiymətlərin aşağı salınmasına səbəb olur son nəticədə.

Amma firmalarla əməkdaşlıq edən taksi sürücüləri ilə çalışmaq heç də hər zaman sərnişinə rahatlıq gətirmir. Şəhəri yaxşı tanımayan, noviqator sistemi mükəmməl səviyyədə çalışmayan sürücülərlə sərnişinlər arasında narazılıq buna görə yaranır. Məsələn, müştəri evinə, iş yerinə taksi sifariş edir, amma sürücü verilən ünvanın noviqatorda görünmədiyini deyərək, uzağa gedib çıxır. Bəzən dəqiqələrlə taksi sürücüsünə yeri başa salmaq lazım gəlir ki, bu da əlavə əsəb deməkdir.

### Ən riskli peşə sahibləri taksi sürücüləridir

Amma gerçəkdən taksi sürücülüyünün nə qədər çətin bir çətin bir peşə olması ilə bağlı araşdlrma nəticələri də var. Araşdırma hər nə qədər Amerikada həyata keçirilsə də, bu, bütün dünyada keçərli bir durumu əks etdirir. Amerikanın Sağlamlıq və İnsan Xidmətləri Dairəsinin ictimai sağlamlıq və təhlükəsizliyin təmin edilməsi istiqamətində çalışan qurumu olan CDC tərəfindən həyata keçirilən araşdırmada dünyada ən vəhşi ölümlərə səbəb olan peşənin taksiçilik, taksi sürücülüyü olduğu müəyyənləşib. Taksi sürücüləri insanlarla iç-içə, gecə-gündüz qarışıq və birbaşa nağd pul üzərində çalışmalarına görə dünyanın ən riskli peşə qruplarının başında yer alır.

Sənəddə qeyd olunub ki, Amerikada 2014-cü ildəki taksi sürücüləri ölümlərinin 50 faizi qəza nəticəsində, 50 faizinin isə taksidəki dava nəticəsində yaşandığı ortaya çıxıb. Taksi sürücülərinin xaricində digər riskli peşə qrupları arasında yük maşını sürücüləri, dam ustaları, balıqçılar, zibil toplayanlar da yer alır.

### Taksi sürücülərinin düşməni kimlərdir?

Amma taksi sürücülərinin bir başqa düşməni də Uber sistemi olub. Dünyanın bir çox şəhərlərində yayılmağa başlayan, alternativ avtomobil icarə sistemi Uberə qarşı çıxan argentinalı taksi sürücüləri paytaxt Buenos Ayresdə etiraz aksiyası keçiriblər.

Uberin tətbiqi xüsusi avtomobil sahiblərinin internet və ağıllı telefonlar vasitəsilə taksi xidməti göstərməsinə imkan yaradır. Sistemin ölkədə rəsmi olaraq xidmətə başlamasına etiraz edən taksi sürücüləri paytaxt Buenos-Ayresdəki Uber ofisinə hücum ediblər. Taksi sürücüləriylə Uber sisteminə daxil olan sürücülər arasında qarşıdurma yaşanıb. Taksi sürücüləri vergi ödəməyən xüsusi avtomobil sahiblərinin daha ucuz qiymətə müştəri daşımasına qarşı çıxıb, bu səbəbdən gəlirlərinin düşdüyünü bildiriblər.

Taksi sürücüləri özlərini təhlükələrdən qorumaq üçün bir sıra tədbirlər də keçirirlər. Məsələn, bir neçə il bundan öncə "Mərhəmət Yubileyi" çərçivəsində təşkil ediləcək silsilə tədbirlər ərəfəsində Romada təhlükəsizliyin təmin olunması istiqamətində görülən tədbirlərdən biri də taksi sürücülərinə antiterror kurslarının keçirilməsi olub. Tədbirlər çərçivəsində Romaya dünyanın müxtəlif ölkələrindən xeyli sayda insanın axın edəcəyini nəzərə alaraq, paytaxtda fəaliyyət göstərən taksi şirkətləri birliyi bəyanat yayıb. Bəyanatda qeyd olunur ki, kursun əsas məqsədi taksi sürücülərinə müdafiə üsullarını və ictimai yerlərdə hər hansı zorakılıq aktlarına qarşı sayıqlıq göstərməyin yollarını öyrətməkdir. Dünyada gərginliyin hökm sürdüyü bir vaxtda bu cür təlimlərin təşkili şəhərin sakinlərinə və turistlərə daha təhlükəsiz mühit bəxş edəcək.

Taksi sürücülərindən yazırıqsa, "Yeni Müsavat" daha bir araşdırmanı da nəzərinizə çatdırır. Londonun məşhur qara taksilərinin sürücülərinin beyni normaldan böyük çıxıb. Araşdırmaya görə, taksiçilər yolları əzbərlədikcə beyinləri də inkişaf edir. Onsuz da Londonda taksi sürücüsü olmaq üçün də ən azı 2 il boyunca çalışmaq lazımdır.

### Taksi sürücülərinin beyni get-gedə böyüyür

İngiltərənin paytaxtı Londonda xidmət dən taksi sürücülərinin beyinlərinin bir hissəsi şəhər yollarını ağıllarında tuta bilmək üçün zamanla böyüyür. Araşdırmaya görə, taksi sürücüsü olaraq xidmət müddəti artdıqca beynin əlaqədar hissəsi də daha da böyüyür.

Beynin ön hissəsinin qarşısında "hippocampus" adlanan nahiyə var. Quş və digər heyvanlarda bu hissəsi istiqaməti tapmaqda vacib rol oynayır. İndi isə London College Universiteti araşdırmaçıları taksi sürücülərinin tomoqrafiyalarını araşdırıb. Araşdırmaya 16 sürücü qatılıb. Nəticədə öyrənmə müddətində önəmli rol oynayan və istiqamət tapma mərkəzi olaraq da bilinən "hippocampus" bölgəsinin taksiçilərdə normal insanlara görə daha böyük olduğu müşahidə edilib.

Araşdırma Beynəlxalq Elm Akademiyası bülletenində yayınlanıb. Mövzu ilə bağlı BBC-yə açıqlama verən araşdıraçı həkim Elenanor Maguire bildirib ki, "hippocampus"un müəyyən bir yeri, arxa bölümü taksi sürücülərində daha böyükdür. Ön bölümü isə daha kiçikdir. Bundan başqa, taksi sürücüsü olaraq xidmət müddəti artdıqca böyümənin daha da artdığı müşahidə edilib.

Maguireyə görə, beyin istiqamət tapmaq ilə bağlı məlumatları dəyərləndirirkən "hippocampus"da yer alan boz güşələr yenidən şəkillənir. İngilis neroloq deyib ki, bu, çox diqqət çəkicidir. Çünki sağlam bir insan beyni böyük bir dəyişiklik keçirir. İngilis araşdırmaçı eyni zamanda, deyib ki, taksi sürücülərinin istiqamət tapma aksiyası ilə beyin dəyişiklikləri arasında müəyyən bir əlaqə var. Elm adamları bu araşdırmada əldə edilən məlumatlarla Parkinson və ya beyin zədələnməsi nəticəsində yaddaş itkisi yaşayan xəstələr üçün də yeni reabilitasiya proqramları inkişaf etdirməyi ümid edirlər.

Təbii ki, bu araşdırma nəticələri, sadəcə, londonlu qara taksi sürücüləri üçün keçərlidir. Çünki Londonda sürücü olmaq heç də asan deyil. Yeni bir taksi plakası və maşın almaqla iş bitmir. Londonda təxminən 23 min qara taksi var.

Bir taksi sürücüsünün 1500 km2-lik bir sahədəki hər bir küçəni və ara küçəni bilməsi lazımdır. Və bir taksi sürücüsünün bütün bunları yaddaşa köçürməsi isə təxminən 2 il davam edir. Ancaq bu da bəs etmir. Taksi sürücüsünün Londonu qarış-qarış əzbərlədiyini sübut etməsi lazımdır. Hər il taksi sürücülüyü imtahanına təxminən 3500 nəfər girir, amma hər 5 namizəddən yalnız biri sükan arxasında oturmaq haqqı qazanır.

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 26 (7196) 4 fevral 2019



# İntihardan qurtaran xilaskarı ilə 1 il sonra görüşdü

**Londondon sakini bir il öncə onu intihardan xilas edən kişi ilə qarşılaşıb. Lenta.ru saytının xəbərinə görə, 2017-ci ilin 27 martında Liv Pontin dəmiryolu xətlərinin üstünə çıxıb. Bu məqamda qatarın maşinisti onu fərq edib və bir neçə dəfə xəbərdarlıq siqnalı verib, qadını qorxudub. Hadisə Conun yeni işə başlamasının ikinci günü baş verib. Sərnişin qatarını tərk edən maşinist on dəqiqə boyunca Pontini sakitləşdirməyə çalışıb və ona diqqətlə qulaq asıb. O, qadına danışıb ki, nə zamansa yanğınsöndürən olub və dəhşətli faciələri gözü ilə görüb. Qadını qorxunc fikirlərdən xilas etmək üçün maşinist ona həmçinin oğlu barədə də danışıb.**

"Həmin axşam məndə emosional partlayış baş verdi, o insan mənim həyatımı xilas etdi" - bunu da Pontin deyib. O, izah edib ki, uzun müddət iş tapa bilmədiyi üçün özünü pis hiss edirmiş. Həmin gün Pontin vağzala gedib, qatarın maşinistinə ünvanlanan məktub yazıb və ondan xahiş edib ki, kin saxlamasın. Xilasdan sonra ilk qarşılaşmasını isə BBC kanalı təşkil edib. Con xilas etdiyi qızla yenidən görüşdüyü üçün şad olub. "Mən çox şad oldum ki, sən nəhayət ki, özünü tapdın" - bunu da maşinist görüş zamanı deyib.

Onlar bir neçə dəqiqə söhbətləşib, keçmişi və gələcəyi, Pontinin mənəvi vəziyyətini müzakirə ediblər.

# Çox nağıl oxuyan uşaqlar az eqoist olurlar

**Kanadadakı York Universitetinin alimi, psixoloq Raymond Mar və Toronto Universitetində çalışan Keith Oatley öz araşdırmalarında bu qənaətə gəliblər ki, roman oxuyan insanlar başqalarının dərdini daha yaxşı anlayır, onların dərdinə şərik olur, başqalarının düşüncə tərzi, maraqları və inanclarına hörmətlə yanaşır, onları daha yaxşı anlayırlar. Bir sözlə, kitab oxuyanlar daha yaxşı insanlardırlar.**



Kitab oxuyaraq onlar başqalarının həyatına yazıçının abstrakt təhkiyəsi prizmasından baxırlar. Bu onlara imkan verir ki, minlərlə başqa insanın, yeni obrazların daxili aləminə baş vursun, həmin obrazların kimliyinə bürünüb yaşasın, onların səhvlərindən öyrənsin, müdrikliyindən bəhrələnsin. Kişidirsə, qadın olmağın nə demək olduğunu anlasın, qadındırsa, kişinin düşüncə tərzindən, psixologiyasından xəbərdar olsun.

Bir sözlə, mütaliə həvəskarları psixoloji baxımdan öz yaşlarından daha böyük olur, gerçək həyatda illərlə görüb-götürdükcə toplaya biləcəkləri bilgini, təcrübəni kitablardan əxz edirlər. Uşaqlara nə qədər çox nağıl, hekayə oxunursa, onlar bir o qədər az eqoist olur, başqalarını daha yaxşı anlayır, onların fikirlərinə hörmətlə yanaşırlar.

# İnsan bu cür gülürsə, xəstədir



**"Witzelsucht" xəstəliyinə düçar olanlar bütün günü gülür və zarafat edirlər. Bu xəstəliyin adı alman dilindən tərcümədə zarafatı sevən mənasını verir. Belə xəstələrin beyinlərinin sağ yarımkürəsində problem olur. Əgər problem sol yarımkürədə olarsa, xəstəliyin əlaməti tam əksinə, qaraqabaqlıq, özünəqapanma ilə müşayiət olunur.**

"Witzelsucht" xəstəliyinə tutulanların ən böyük problemlərindən biri ətrafdakı insanları narahat etmələridir. Onlar istənilən məqamda və istənilən məkanda yersiz zarafatları və gülüşləri ilə xoşagəlməz vəziyyət yarada bilirlər. Məsələ burasındadır ki, belə xəstələr yumor hissini, başqalarının zarafatlarını qəbul edə bilmirlər. Komediya janrında olan filmlər belə bu xəstələri güldürə bilmir və onlar bu filmlərə ciddi bir film kimi baxırlar. Ancaq film qurtardıqdan sonra sözün əsl mənasında komediya başlanır. Onlar bu filmdə göstərilən süjetləri öz məharətlərinə uyğun təkrarlamağa başlayırlar.

Bu gülməli xəstəliyin ən acınacaqlı tərəflərindən biri də odur ki, onlarla ciddi fikir mübadiləsi aparmaq və söhbət etmək mümkün deyil. Qarşıdakı insan nə qədər ciddi olarsa, belə xəstələrin gülüşü də bir o qədər davamlı olur.

Hələ ki tibb elmi bu xəstəliyin müalicəsində acizdir. Həkimlər, sadəcə, bəzi dərman preparatlarının vasitəsi ilə sürəkli və şaqraq gülüşləri çox qısa bir müddətə müvəqqəti olaraq dayandıra bilirlər.

# Qoroskop




**QOÇ** - Səhhətinizi qoruya bilsəniz, gün ərzində heç bir çətinliklə rastlaşmayacaqsınız. Ulduzlar ailə-sevgi münasibətlərindəki soyuqluğu aradan qaldırmağınızı tövsiyə edir. Hissləri sındırmaqdan əl çəkin.

**BUĞA** - Astroloji göstəricilər yalnız saat 12-yə qədərki vaxtı gərginlik içində başa vuracağınızı bildirir. Həmin zamanda maksimum ehtiyatlı olmalısınız. Qalan saatlarda isə çox şey ürəyinizcə olacaq.

**ƏKİZLƏR** - İlk iş saatları passiv başlasa da, nahara yaxın nəzərdə tutduğunuz planların əksəriyyəti öz həllinə yaxınlaşmağa başlayacaq. Amma gərək hər şeydən əvvəl ünsiyyət qurduğunuz şəxslərin etibarını yoxlayasınız.

**XƏRÇƏNG** - Qarşınızda təzadlı bir gün düşüb. Hadisələrin gedişatı gah müsbət, gah da mənfi müstəvidə cərəyan edə bilər. Odur ki, ayıq-sayıqlığınızı artırmalı, prosesləri dərindən analiz etməli və məqamındaca addım atmalısınız.

**ŞİR** - Sakit bir təqvim yaşayacaqsınız. Ara-sıra fikir və düşüncələrinizdə təlatümlər baş qaldırsa da, bunu kənardan heç kim bilməyəcək. Əgər maddi imkanınız yol versə, səfərə çıxmaq olar.

**QIZ** - Ümumən gərgin gün olsa da, özünüzü cilovlamağı bacaracaqsınız. Əgər hansısa məsələdə tərəddüdünüz varsa, mütləq etibar etdiyiniz şəxslərin məsləhətlərindən yararlanın. Səfərə çıxmayın.

**TƏRƏZİ** - Saat 14-ə qədər əsəblərinizi cilovlaya bilsəniz, qalan saatlarda heç bir narahatçılığınız olmayacaq. Qarşınıza pulla bağlı çıxan problemlərin əksəriyyəti aktivliyinizdən asılı olaraq aradan qalxacaq.

**ƏQRƏB** - Yaxşı olar ki, gün ərzində bütün diqqətinizi pulla bağlı məsələlərə yönəldəsiniz. Əgər reallığa uyğun addım atsanız, səmərəli nəticəni görəcəksiniz. Büdcənizlə bağlı irəliləyişlər də gözlənilir.

**OXATAN** - Adi günlərdən birini yaşayacaqsınız. Hansısa qeyri-adi yenilik və ya uğursuzluq gözləməyin. Amma iqlim dəyişkənliyi daxili orqanlarınızda (ələlxüsus da böyrək və yoğun bağırsaqda) yüngül ağrılar yarada bilər.

**OĞLAQ** - Əsas diqqətinizi maliyyə problemlərinin həllinə yönəldin. Çünki indi - planetiniz olan Saturnun təsir gücünün artdığı bir vaxtda bunu bacarmasanız, qarşıda sizi uzunmüddətli kasıbçılıq gözləyə bilər.

**SUTÖKƏN** - Bəri başdan nəzərdə saxlayın ki, ixtiyarınızda olan bu gün bürcünüzün ən aktiv dövrünə çevriləcək. Hansısa uğursuzluq haqqında düşünməyə lüzum yoxdur. Əksinə, uğurların astanasına yetişəcəksiniz.

**BALIQLAR** - İlk öncə bildirək ki, hazırda ciddi bir seçim qarşısındasınız. Tərəddüdləriniz çox olsa da, özünüzü ələ almalı, cəsarət göstərib seçiminizi etməlisiniz. Yeni sövdələşmələr üçün ideal vaxtdır.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qadın dünyaya altı uşaq gətiribsə...

**Aparılan araşdırmalar nəticəsində məlum olub ki, ana olandan sonra qadınların ömrü uzanır. Araşdırma heç də 1-2 uşaqlı anaları əhatə etmir, söhbət dünyaya 6 və ya daha çox uşaq gətirmiş qadınlardan gedir. Yəni 6 uşaq sahibi bir ananın ömrü digər anaların ömründən daha çoxdur.**



Avstraliyada aparılan araşdırmaya görə, 6 və ya da daha çox sayda uşağı olan qadınlar yüzdə 40% daha az ölüm riski daşıyır. Araşdırmanın rəhbəri olan Yeni Cənubi Uels Universiteti professoru Leon Simons bildirib ki, "qadınları 6-dan çox uşaq sahibi olun deyə təşviq etməsək də, görünən budur ki, çoxuşaqlı analar ən azı bir uşağı olan həmcinslərindən daha çox yaşayır".

ABŞ mətbuatında yer alan araşdırma isə 1988-ci ildən etibarən 60 yaşdan yuxarı olan 1500 qadın və 1200 kişini əhatə edib. Gələnən nəticəyə görə, uşağı olmayan qadınlara nisbətlə iki uşağı olan qadınlar yüzdə 17, üç uşağı olan qadınlar yüzdə 20 daha az ölüm riski daşıyır. Uşaq sayı artdıqca anaların ölüm riski azalmağa davam edir. Bu vəziyyətin səbəbinin hələ tam olaraq açıqlanmadığını bildirən Simons, eyni tapıntılara başqa ölkələrdə də rast gəlindiyini bildirib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.755